QARABAĞ AZƏRBAYCANDIR!

ELM

Qüvvət elmdədir...

Nizami Gəncəvi

HAYKA

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

№ 25 (1260) ❖ Cümə, 11 dekabr 2020-ci il ❖ Qəzet 1984-cü ildən nəşr olunur



# Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib

**Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Zəfər paradında iştirak ediblər.

"Dəmir yumruq" əməliyyatında - Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər paradına müdafiə nazirinin müavini, "Zəfər" ordenli general-leytenant Kərim Vəliyev komandanlıq edib.

Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi.

Hərbi orkestr "Azərbaycan fanfarası"nı ifa etdi.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana raport verdi.

Dövlət başçıları əsgərləri salamladılar. Hərbi orkestr Azərbaycanın və Türkiyənin dövlət himnlərini ifa etdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda çıxış etdi.

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

Dövlət başçılarının çıxışlarından sonra Zəfər paradı başladı.

Vətən Müharibəsi Qəhrəmanı general-mayor Zaur Məmmədovun başçılıq etdiyi döyüş bayraqdarları qrupu Böyük Qələbənin qazanılmasında müstəsna xidmətləri olan hərbi hissələrin döyüş bayraqlarını Azadlıq meydanına gətirdi.

Sonra Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçuları tribunanın önündən keçdilər. Üç kolondan ibarət parad heyətinə Xüsusi Təyinatlı Qüvvələrin komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Hikmət Mirzəyev başçılıq edirdi.

Ardınca Hərbi Dəniz Qüvvələrinin dəniz piyadaları birinci dərəcəli kapitan Zaur Quliyevin başçılığı ilə tribuna önündən keçdilər.

Sonra Xarici Kəşfiyyat Xidmətinin və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarından ibarət parad heyətləri tribunanın önündən addımladılar. Dövlət Təhlükəsizliyi Xidmətinin parad heyətinə general-mayor Rövşən Muxtarov başçılıq edirdi.

Daha sonra polkovnik Səid İsayevin başçılığı ilə Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları, polkovnik Taleh Məşədiyevin rəhbərliyi ilə Birinci Ordu Korpusunun döyüşçüləri, polkovnik Nemət Müseyibovun başçılığı ilə İkinci Ordu Korpusunun, polkovnik-leytenant Kamran Ağabalayevin rəhbərliyi ilə Üçüncü Ordu Korpusunun, polkovnik İlham Məmmədovun başçılığı ilə Dördüncü Ordu Korpusunun və polkovnik-leytenant Dəyanət Müslümovun rəhbərliyi ilə Altıncı Ordu Korpusunun hərbi qulluqçuları tribuna önündən keçdilər.

Raket və Artilleriya Qoşunlarının hərbi qulluqçuları polkovnik İsmixan Məmmədovun rəhbərliyi altında tribuna önündən mətin addımlarla irəlilədilər.

Zəfər paradında qardaş Türkiyə Respublikası Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçular minbaşı Harun Ergenin rəhbərliyi ilə tribuna önündən keçdilər.

Dövlət Sərhəd Xidmətinin parad heyətləri general-mayor Rəsul Tağıyevin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının parad heyəti general-mayor İnqilab Muradovun, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçularından ibarət parad heyəti isə mayor Eldar Quliyevin rəhbərliyi ilə mətin addımlarla Azadlıq meydanına daxil oldular.

Sonra general-mayor Füzuli Salahovun rəhbərliyi ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin parad heyəti, general-mayor Bəkir Orucovun başçılığı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursant və zabitlərinin keçidi oldu.

Naxçıvan Muxtar Respublikasındakı Heydər Əliyev adına Hərbi Liseyin kursantları general-mayor Məhəmməd Həsənovun başçılığı ilə ilk dəfə olaraq Azadlıq meydanında keçirilən paradda iştirak edirdilər.

Vətən müharibəsində Böyük Qələbəyə həsr olunmuş Zəfər paradını Əməkdar incəsənət xadimi polkovnik-leytenant Rüfət Axundzadənin dirijorluğu ilə birləşmiş hərbi orkestr müşayiət edirdi.

Daha sonra hərbi texnikaların keçidi başladı.

Vətən müharibəsində Qələbəyə həsr olunan Zəfər paradına Hərbi Dəniz Qüvvələrinin və Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin döyüş gəmiləri və katerləri dənizdən dəstək verdi.

"Dəmir yumruq" əməliyyatının - Vətən müharibəsinin qazilərinin Zəfər paradında tribuna önündən keçidi oldu.

Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü və sıradan çıxardığı 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan kompozisiya paradda nümayiş olundu. Döyüşlərdə qənimət götürülmüş istifadəyə yararlı texnikalar Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbələr vurduğunun əyani təsdiqidir.

Bundan sonra "Qarabağ" ordenli general-leytenant Nizam Osmanovun başçılıq etdiyi xüsusi təyinatlı avtomobil, zirehli texnika və silah sistemləri kolonu Azadlıq meydanına daxil oldu.

Daha sonra müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı, "Zəfər" ordenli general-leytenant Ramiz Tahirovun başçılıq etdiyi Hava Hücumundan Müdafiə silahları sistemləri kolonunun keçidi oldu. Vətən müharibəsində Qələbənin əldə edilməsində çox mühüm rol oynayan ən müasir PUA-lar - "Bayraktar-TB2", habelə "Hermes-450", "Hermes-900", "Quzğun", "Harop" və s. PUA-lar nümayiş olundu.

Ardınca Azadlıq meydanına "Zəfər" ordenli general-mayor Ağamir Sultanovun başçılıq etdiyi artilleriya silahları sistemlərinin kolonu daxil oldu.

Bundan sonra Azadlıq meydanı üzərində Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu keçirildi, səmada Azərbaycan Respublikasının dövlət bayrağının təsviri yaradıldı.

Vətən müharibəsinin iştirakçısı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbaninin aparıcısı olduğu Zəfər paradı 44 günlük müharibədə Azərbaycan Ordusunun Böyük Qələbəsini bütün dünyaya təntənəli şəkildə nümayiş etdirdi. "Dəmir yumruq" əməliyyatı adı ilə Azərbaycanın yeni tarixinə yazılan Vətən müharibəsində Rəşadətli Ordumuzun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığı Böyük Qələbə müasir müstəqil Azərbaycan dövlətinin hərbi qüdrətinin, iqtisadi gücünün nümayişi ilə yanaşı, xalqımızın qələbə əzminin də əyani təsdiqidir.

Yaşasın müstəqil Azərbaycan Respublikası! Yaşasın müzəffər Azərbaycan Ordusu! Yaşasın sarsılmaz və əbədi Azərbaycan-Türkiyə qardaşlığı!



**Akademiyada ümummilli lider Heydər Əliyevin xatirəsi anılıb**

səh. 2 ⇨



**AMEA ilə İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında əməkdaşlıq sənədi imzalanıb**

səh. 3 ⇨



**Elmi informasiya müharibəsinin ön cəbhəsində**

səh. 4-5-6 ⇨



**Qarabağda kəşf edilmiş arxeoloji mədəniyyətlər**

səh. 8 ⇨

# AMEA-da ümummilli lider Heydər Əliyevin xatirəsi anılıb





**Dekabrın 8-də AMEA Rəyasət Heyətinin və akademiyanın Qadınlar Şurasının təşkilatçılığı ilə "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev, Zaman və müasir dövr" mövzusunda konfrans keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev, AMEA-nın birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli, AMEA-nın vitse-prezidentləri, akademiklər - Dilqəm Tağıyev, İradə Hüseynova, AMEA-nın akademik-katibi, müxbir üzv Əminağa Sadıqov, Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva, AMEA İşlər idarəsinin müdiri, professor Elton Məmmədov, AMEA Qadınlar Şurasının sədri, professor Rəna Mirzəzadə, AMEA YAP ərazi təşkilatının sədri, dosent Ulduzə Qurbanova və digər şəxslər iştirak ediblər.

Konfransı akademik Ramiz Mehdiyev açaraq hər il ölkəmizdə Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olduğu və əbədiyyətə qovuşduğu günlərin geniş miqyasda qeyd edildiyini bildirib. Diqqətə çatdırıb ki, bu tədbirlər Heydər Əliyev kimi müstəqil Azərbaycan dövlətinin böyük qurucusu olmuş görkəmli dühanın keçdiyi çətin və şərəfli yolun, apardığı böyük mübarizələrin timsalında dövlət müstəqilliyimizin ibrətamiz dərslərinin xalqımıza çatdırılmasına xidmət edir. Akademikin sözlərinə görə, Heydər Əliyev tədbirləri Azərbaycanın dövlət müstəqilliyi dərsləri funksiyasını həyata keçirir, xalqımızı, xüsusən yeni nəsilləri seçilmiş çətin və şərəfli yolun dərslərini unutmamağa, müstəqil dövlətimizi qorumaq və inkişaf etdirmək üçün hər cür mübarizəyə hazır olmağa çağırır.

Azərbaycanda ilk dəfə ulu öndərin büstünün 1983-cü ildə Naxçıvanda qoyulduğunu xatırladan AMEA rəhbəri ümummilli lider Heydər Əliyevin həm SSRİ dövründə, həm də müstəqillik illərində ölkəmiz üçün müstəsna xidmətləri olduğunu söyləyib.

"Azərbaycan xalqı Heydər Əliyevin növbəti xatirə gününü bu il müstəqil dövlətimiz və xalqımız üçün çox əlamətdar bir gündə - Dağlıq Qarabağın və ətraf rayonların 30 ildən sonra erməni işğalından azad edildiyi tarixi bir dövrdə qeyd edir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında müzəffər ordumuzun qalibiyyət yürüşü tarixi qələbə ilə başa çatdı. Bu, Prezident İlham Əliyevin adı ilə bağlı olan və Azərbaycanın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılacaq ən parlaq tarixi hadisədir", - deyə akademik Ramiz Mehdiyev vurğulayıb.

Ölkə başçısının Sərəncamı ilə Azərbaycanda hər il 8 noyabrın Zəfər günü kimi təntənə ilə qeyd ediləcəyini deyən AMEA rəhbəri iki gün sonra isə Azərbaycan tarixində ilk dəfə olaraq Bakı şəhərində Qələbə paradının keçiriləcəyini söyləyib. Məruzəçi bu təkraredilməz tarixi hadisələrin Prezident, Qalib Ali Baş Komandan İlham Əliyevin müstəqil Azərbaycan dövləti və xalqımız qarşısındakı müstəsna xidmətləri olduğunu bildirib: "Bu qələbə, eyni zamanda Prezident İlham Əliyevin ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinə dərin sədaqətinin də ifadəsidir. Təsadüfü deyildir ki, Prezident İlham Əliyev Şuşa şəhərinin alındığı həlledici gündə ulu öndər Heydər Əliyevin məzarını ziyarət etməklə, həm də müstəqil Azərbaycan dövlətinin banisinin arzusunu həyata keçirdiyini bəyan etdi".










Ali Baş Komandan İlham Əliyevin 44 günlük Vətən müharibəsində özünün sərkərdəlik bacarığını bütün dünyaya nümayiş etdirdiyini deyən akademik R.Mehdiyev ölkə başçısının xalqa müraciətlərinin onun həm də böyük ideoloq olmasından xəbər verdiyini bildirib.

O, çıxışının sonunda alimlərimizin Heydər Əliyev irsini və İlham Əliyevin çoxcəhətli uğurlu fəaliyyətini, o cümlədən Zəfər gününün qazanılmasındakı xidmətlərini dərindən öyrənməsinin və bu mövzularda sanballı tədqiqat əsərləri yazaraq gələcək nəsillərə çatdırmasının vacibliyini vurğulayıb.

Konfransda daha sonra akademik İsa Həbibbəylinin "Dağlıq Qarabağda hərbi-siyasi zəfər: Heydər Əliyevdən - İlham Əliyevə" mövzusunda məruzəsi dinlənilib. Akademik müasir Azərbaycan Respublikasının ümummilli lider Heydər Əliyevin şah əsəri olduğunu söyləyib, ulu öndərin Birinci Qarabağ müharibəsində atəşkəsə nail olmaqla, ölkədəki vətəndaş müharibəsini dayandırmaqla və quruculuq işlərinə başlamaqla dövlətimizin gələcək tarixində əsaslı dönüşün təməlini qoyduğunu bildirib.

Onun sözlərinə görə, 29 illik müstəqillik tariximizdə bir çox beynəlxalq təşkilata sədrlik etməyimizə, önəmli enerji layihələri həyata keçirməyimizə baxmayaraq, uğurlarımızın sırasında ilk yerdə 44 günlük Vətən müharibəsində Qarabağın düşmən işğalından azad olunması dayanır. Akademik bu qələbənin təməlinin ulu öndər tərəfindən qoyulduğunu, ümummilli liderin apardığı beynəlxalq danışıqlarda münaqişənin həllinin sülhə, dialoqa əsaslandığını mütəmadi bildirdiyini, lakin müharibə amilini də istisna etmədiyini qarşı tərəfə xatırlatdığını söyləyib. Məruzəçi Horadizin düşmən tapdağından qurtarılması ilə Dağlıq Qarabağ və ətraf rayonların bir gün müharibə yolu ilə işğaldan azad edilə biləcəyinin təməlinin qoyulduğunu diqqətə çatdırıb.

Prezident İlham Əliyevin ulu öndərin siyasi kursunu məharətlə davam etdirdiyini və quruculuq işlərinə mühüm önəm verdiyini deyən akademik İsa Həbibbəyli Azərbaycanın iqtisadi cəhətdən regionun və dünyanın güclü dövlətlərindən birinə çevrildiyini bildirib. Bundan əlavə, peşəkar hərbi kadrların yetişdirilməsi və ordumuzun müasir silahlarla təmin edilməsi istiqamətində siyasət uğurla icra edilib.

"Ölkə rəhbərliyi tərəfindən aparılan beynəlxalq danışıqlar zamanı Azərbaycanın ərazi bütövlüyü daim vurğulanıb. Ermənistan baş naziri Nikol Paşinyan da bu günlərdə etiraf etdi ki, xarici liderlərlə görüşlərində onların hamısı Azərbaycanın ərazi bütövlüyünə hörmət etdiklərini dilə gətiriblər", - deyə akademik söyləyib.

Prezident İlham Əliyevin ölkəmizdə güclü iqtidar-xalq birliyi yaratdığını bildirən İ.Həbibbəyli müharibə dövründə hətta digər siyasi partiyaların dövlət başçısına və Azərbaycan ordusuna etimadlarını dilə gətirdiklərini deyib. Akademik, həmçinin Qoşulmama Hərəkatına üzv ölkələrin İkinci Qarabağ müharibəsi dövründə BMT Təhlükəsizlik Şurası tərəfindən yeni qətnamənin qəbul edilməsinə imkan verməməsini Azərbaycan diplomatiyasının parlaq zəfəri kimi qiymətləndirib. Bundan əlavə, qonşu dövlətlər - Rusiya, İran və Gürcüstanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini, müharibə dövründə öz hava məkanlarını Ermənistana hərbi yüklərin daşınmaması məqsədilə bağladıqlarını bildirib.

İ.Həbibbəyli 30 il sonra Azərbaycan torpaqlarının düşmən işğalından azad olunması ilə "Böyük Ermənistan" mifinin dağıldığını, Ermənistan lobbisinin gücü və iradəsinin sındırıldığını, Dağlıq Qarabağın statusu məsələsinin birdəfəlik aradan qaldırıldığını, Paşinyan hakimiyyəti, Ermənistan dövləti və ordusunun iflic olduğunu söyləyib.

O cümlədən illər sonra açılacaq Naxçıvan koridorunun Çindən başlayan və mühüm strateji əhəmiyyətə malik Yeni İpək Yolunun tərkib hissəsi olacağını diqqətə çatdırıb.

Akademik Qalib Ali Baş Komandan, müzəffər dövlət xadimi İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması nəticəsində xalqımızın sınmış qürurunun bərpa olunduğunu deyib, çıxışını "Qarabağ Azərbaycandır", "Eşq olsun Azərbaycan xalqına", - şüarları ilə bitirib.

"Heydər Əliyev və Azərbaycan elmi" mövzusunda çıxış edən akademik İradə Hüseynova isə ulu öndərin hakimiyyətdə olduğu bütün illərdə elmə, elm adamlarına xüsusi diqqət və qayğı göstərdiyini, xalqımızın inkişafının elmdə, intellektual potensialının zənginləşməsində gördüyünü söyləyib. Qeyd edib ki, ümummilli liderin təşəbbüsü ilə 1970-ci illərdən başlayaraq ölkəmizdə elmi-tədqiqat institutlarının sayı artırılıb: "Əgər 1969-cu ildə ölkəmizdə 89 elmi müəssisə, 1285 elm adamı, 55 akademik-müxbir üzv vardısa, 1978-ci ildə bu göstərici 118 müəssisəyə, 21470 elm adamına, 100 akademik-müxbir üzv, 850 elmlər, 7594 fəlsəfə doktoruna yüksəlmişdi".

O, görkəmli xadimin elmin maddi texniki bazasının gücləndirilməsinə də xüsusi diqqət göstərdiyini, həmin illərdə AMEA-nın və Azərbaycan elminin nüfuzunun artdığını, alimlərimizin bir çox dövlət mükafatlarına layiq görüldüyünü bildirib. İ.Hüseynova ulu öndərin təməlini qoyduğunu bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, elmin hüquqi bazasının möhkəmləndirildiyini, "Elm haqqında Azərbaycan Respublikasının Qanunu"nun qəbul olunduğunu deyib.

"Bu gün Azərbaycan elminin qarşısında işğaldan azad edilən ərazilərdə sistemli tədqiqatların aparılması dayanır. Biz alimlər Prezident İlham Əliyevin ətrafında sıx birləşərək qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gələcəyik", - deyə o söyləyib.

Sonra professor Rəna Mirzəzadənin "Birinci vitse-prezident Mehriban Əliyeva - Heydər Əliyev dövlətçilik məktəbinin görkəmli yetirməsidir" mövzusunda çıxışı dinlənilib. O, birinci xanım Mehriban Əliyevanın Heydər Əliyev dövlətçilik məktəbinin ən böyük yetirmələrindən biri olduğunu, güclü Azərbaycan qadınının simvoluna çevrildiyini vurğulayıb. Qeyd edib ki, bu gün Azərbaycan qadınının yüksək vəzifədə təmsil olunması ölkəmizdə gender bərabərliyinə verilən qiymətin bariz nümunəsidir.

Dosent Ulduzə Qurbanova isə "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda çıxışında ulu öndərin daim Azərbaycan gəncliyinə qayğı ilə yanaşdığını, onların müstəqil fərd kimi yetişmələrinə, milli mənəvi dəyərlərə, eləcə də tarixi köklərə bağlı qalmalarına çalışdığını söyləyib. Ümummilli liderin gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyən məruzəçi son illərdə ölkəmizdə gənclərə yönəlik bir çox dövlət proqramlarının qəbul edildiyini, xaricdə təhsil imkanlarının yaradıldığını vurğulayıb.

"Azərbaycan gəncliyi olaraq ulu öndər Heydər Əliyevin yoluna sadiq qalacaq, dövlət rəhbərliyinin ətrafında sıx birləşəcək, quruculuq işlərinə aktiv qoşularaq öz dəstəyimizi əsirgəməyəcəyik", - deyə U.Qurbanova söyləyib.

Sonda ümummilli liderin həyat və fəaliyyətini əks etdirən slaydlar nümayiş olunub.

# AMEA ilə İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında əməkdaşlıq sənədi imzalanıb




**Dekabrın 9-da AMEA-nın Rəyasət Heyətində "İtaliya Respublikası Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi ilə Azərbaycan Milli Elmlər Akademiyası arasında 2021-2023-cü illər üçün Elmi və Texnoloji Əməkdaşlıq üzrə İcra Proqramı"nı nəzərdə tutan sənədin imzalanma mərasimi keçirilib.**




Mərasimi AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev açaraq İtaliya nümayəndə heyətini akademiyada görməkdən məmnunluğunu dilə gətirib, qonaqların ölkəmizə səfərinin Azərbaycanın ərazi bütövlüyünün bərpa olunduğu əlamətdar günlərə təsadüf etdiyini bildirib. Qeyd edib ki, italiyalı rəsmilərin belə bir dövrdə Azərbaycanı ziyarət etməsi ölkələrimiz arasındakı əlaqələrin, dostluq münasibətlərinin yüksək səviyyədə olmasından xəbər verir. Akademik Ramiz Mehdiyev bu gün Azərbaycanla İtaliya arasında iqtisadi, siyasi, sosial, humanitar, elm, təhsil, mədəniyyət sahələrində güclü tərəfdaşlıq münasibətlərinin olduğunu və hər keçən gün daha da dərinləşdiyini söyləyib. İtaliyanın Azərbaycanın neft-qaz sektoruna da böyük maraq göstərdiyini deyən AMEA prezidenti TAP layihəsinin istifadəyə verilməsi ilə ikitərəfli münasibətlərin genişlənəcəyini diqqətə çatdırıb.

Prezident İlham Əliyevin bu ilin fevral ayında İtaliyaya səfərini xatırladan akademik Ramiz Mehdiyev ölkə başçısının sözügedən ziyarəti çərçivəsində Bakıda İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə bağlı razılığın əldə olunduğunu bildirib. Vurğulayıb ki, yeni yaradılacaq ali təhsil ocağında fəaliyyət göstərəcək fakültələr artıq müəyyənləşdirilib və universitet üçün xüsusi binanın inşa edilməsi də planlaşdırılır. AMEA prezidenti İtaliya-Azərbaycan Universitetinin nəzərdə tutulan fakültələri sırasında Memarlıq fakültəsinin olmasından məmnunluğunu dilə gətirib, yetişdiriləcək gənc kadrların Ermənistanın işğalı nəticəsində məhv edilmiş Azərbaycan rayonlarının bərpasına öz töhfələrini verəcəklərini söyləyib.

Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarının 30 il ərzində Ermənistanın işğalı altında qaldığını deyən akademik R.Mehdiyev bu müddət ərzində tarixi ərazilərimizdəki mədəniyyət nümunələrinin bədnam qonşularımız tərəfindən talan edildiyini, şəhər və rayonlarımızın məhv olunduğunu qeyd edib, ermənilərin faşistlərin siyasətini davam etdirdiklərini vurğulayıb. 44 günlük Vətən müharibəsi ilə ölkəmizin ərazi bütövlüyünün bərpa edildiyini diqqətə çatdıran natiq bildirib ki, İkinci Qarabağ müharibəsi ərzində Ermənistan tərəfindən Azərbaycanın mülki əhalisi məqsədli şəkildə hədəf alınıb, Gəncə, Bərdə, Tərtər şəhərləri qadağan olunmuş silahlardan atəşə məruz qalıb. Akademik məlumat verib ki, ümumilikdə düşmənin mülki vətəndaşlarımızı atəşə tutması nəticəsində 94 nəfər həlak olub, 400-dən çox insan yaralanıb. AMEA prezidenti müharibədən sonra bütövlükdə Cənubi Qafqazda yeni vəziyyətin yarandığını deyib, bu gün Azərbaycanın regionun iqtisadi gücünün 70-75 faizini təşkil etdiyini diqqətə çatdırıb.

"İtaliya Respublikası Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi ilə Azərbaycan Milli Elmlər Akademiyası arasında 2021-2023-cü illər üçün Elmi və Texnoloji Əməkdaşlıq üzrə İcra Proqramı"nı nəzərdə tutan sənədə toxunan akademik sözügedən müqavilənin iki ölkə arasında elm-təhsil üzrə əməkdaşlıq əlaqələrini dərinləşdirəcəyini bildirib, tədricən birgə həyata keçiriləcək layihələrin genişləndiriləcəyini söyləyib.

Sonra çıxış edən İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi Manlio Di Stefano qonaqpərvərliyə görə AMEA rəhbərliyinə minnətdarlığını bildirib. Bu gün iki ölkə arasında mövcud olan tərəfdaşlıq əlaqələrindən məmnunluq hissi duyduğunu deyən M.D.Stefano elmi-texniki-innovasiya sahələri üzrə münasibətlərimizin inkişaf etdiyini qeyd edib, bu istiqamətdə "Azərkosmos" ASC ilə İtaliya Aerokosmik Agentliyi arasında Anlaşma Memorandumunun imzalandığını xatırladıb.

İtaliya-Azərbaycan Universitetinin layihəsi üzrə aparılan işlərdən məmnunluğunu dilə gətirən qonaq iki ölkə arasında elmi sahədə də protokolun imzalanmasının təqdirəlayiq hal olduğunu diqqətə çatdırıb. İtaliyada gənclərin elmə, təhsilə böyük önəm verdiklərini deyən Manlio Di Stefano Əməkdaşlıq üzrə İcra Proqramının imzalanmasının dostluq münasibətlərimizi zənginləşdirəcəyini bildirib. O, ilkin olaraq 4 layihə üzrə tədqiqatların aparılacağını və gələcəkdə mərhələli şəkildə birgə araşdırmaların genişləndiriləcəyini söyləyib.

Daha sonra "İtaliya Respublikası Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi ilə Azərbaycan Milli Elmlər Akademiyası arasında 2021-2023-cü illər üçün Elmi və Texnoloji Əməkdaşlıq üzrə İcra Proqramı" imzalanıb. Sözügedən sənədi AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev və İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi Manlio Di Stefano imzalayıblar.

Sonda tərəflər qarşılıqlı hədiyyələr təqdim ediblər.

Tədbirdə AMEA tərəfdən akademiyanın prezidenti, akademik Ramiz Mehdiyev, AMEA-nın birinci vitse-prezidentləri, akademiklər İsa Həbibbəyli, İbrahim Quliyev, AMEA Prezidentinin katibliyinin rəisi, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Eldar Əmirov və Rəyasət Heyəti aparatının Xarici əlaqələr idarəsinin rəisi, biologiya üzrə fəlsəfə doktoru, dosent Esmira Əlirzayeva iştirak ediblər.

İtaliyanın nümayəndə heyətinin tərkibində isə bu ölkənin Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, Azərbaycan və İtaliya arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefano, Dövlət katibinin aparat rəhbəri Sergio Maffettone, köməkçisi Vittorio Maiorana, Xarici İşlər Nazirliyinin Rusiya Federasiyası, Qafqaz, Şərqi Avropa və Mərkəzi Asiya Bölməsinin rəhbəri Fabrizio Di Michele, İtaliyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Augusto Massari, səfirin müavini Umberto Boeri və səfirliyin iqtisadi məsələlər üzrə attaşesi Lorena Maschietto təmsil olunub.

Qeyd edək ki, 1 iyun 2002-ci il tarixində Bakıda imzalanmış və 2005-ci ildə qüvvəyə minmiş "Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında təhsil, mədəniyyət, elm və texnologiya sahələrində əməkdaşlıq haqqında Saziş" çərçivəsində 2018-ci ildə İtaliya tərəfindən Elmi və Texnoloji Əməkdaşlıq üzrə İcra Proqramının hazırlanması təklif olunub. Bu məqsədlə 2019-cu ildə AMEA və İtaliya Respublikası Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi tərəfindən tədqiqatçıların mübadiləsini nəzərdə tutan müştərək layihə müsabiqəsi elan edilib.

Müsabiqə yer elmləri, tibb və biotibb, fizika və astrofizika, mədəni irsə tətbiq olunan texnologiyalar kimi prioritet tədqiqat sahələrini əhatə edirdi və hər iki ölkənin tədqiqat, təhsil və səhiyyə müəssisələrinin iştirakını nəzərdə tuturdu. İki ölkənin alimləri tərəfindən müştərək təqdim edilmiş 20 layihə arasından Azərbaycan və İtaliya tərəfinin ekspertiza qiymətləndirməsi nəticəsində 2 biotibb, 1 yer elmləri və 1 mədəni irsin mühafizəsi üzrə layihə qalib olub. Bu layihələrin icrası üzrə "İtaliya Respublikası Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi ilə Azərbaycan Milli Elmlər Akademiyası arasında 2021-2023-cü illər üçün Elmi və Texnoloji Əməkdaşlıq üzrə İcra Proqramı" hazırlanıb.

## Akademik İsa Həbibbəylinin elmi yeniliyi beynəlxalq konfransın müzakirəsində

**Rusiya Federasiyasının Tatarıstan Respublikasının Elmlər Akademiyasının Qalimjan İbrahimov adına Dil, Ədəbiyyat və İncəsənət İnstitutunun təşkilatçılığı ilə Kazan şəhərində "XX-XXI əsrlərdə milli ədəbiyyatların janr-üslub xüsusiyyətlərinin inkişafı" mövzusunda beynəlxalq onlayn konfrans keçirilib.**



Tədbirdə Rusiya, Azərbaycan, Orta Asiya respublikaları və başqa ölkələrdən alim-tədqiqatçılar iştirak ediblər.

Konfransda ölkəmizi təmsil edən AMEA-nın birinci vitse-prezidenti, akademik İsa Həbibbəylinin "Ədəbi növ və janrların təsnifatına yeni baxış: eksperimentlər və satira ədəbi növ kimi" mövzusunda məruzəsi dinlənilib.

Akademik İsa Həbibbəylinin məruzəsində problemə elmi baxış bucağından nəzər yetirilərək, ədəbiyyat tarixi və ədəbiyyat nəzəriyyəsi üzrə dəqiq təhlil və konkret ümumiləşdirmələr aparılıb. Konseptual xarakter daşıyan məruzədə elmi nəzəriyyəyə satiranın da yeni ədəbi növ olaraq daxil edilməsi və bu ədəbi növün özünəməxsus janrlarının olması əsaslı dəlillərlə ortaya qoyulur. Akademik İsa Həbibbəyli satiranın yeni ədəbi növ kimi işlənilməsinin vacibliyini önə çəkərək, uzun illərin axtarışları sayəsində belə bir yekun elmi nəticəyə gəldiyini beynəlxalq konfransın iştirakçılarının diqqətinə çatdırıb.

Azərbaycanlı alimin yeni elmi yanaşması dünya alimləri tərəfindən yüksək dəyərləndirilib. Məruzə ətrafında çıxış edən ədəbiyyatşünas və dilçi alimlər akademikin bu elmi qənaətinin ədəbiyyat nəzəriyyəsi sahəsində mühüm yenilik olduğunu qeyd ediblər.

Qeyd edək ki, konfransın materialları Kazan şəhərində tatar və rus dillərində nəşr olunub.

## Akademik İbrahim Quliyev beynəlxalq forumda çıxış edib

**Dekabrın 8-də Rusiya Federasiyasının Xarici İşlər, Təbiət, Energetika, İqtisadi İnkişaf nazirlikləri, Rossotrudniçestvo agentliyi, Rusiya Elmlər Akademiyası (REA) və Ticarət-Sənaye Palatasının təşkilatçılığı və fəal iştirakı ilə baş tutan "Xəzər dialoqu" Beynəlxalq İqtisadi Forum çərçivəsində "Xəzər energetikasının inkişafı - innovativ əməkdaşlığın istiqamətləri" adlı Xəzər enerji forumu keçirilib.**



Forum REA-nın müvafiq institutları və "Xəzər - elm və innovasiyalar" Şurasının təşkilatçılığı ilə baş tutub.

"Xəzər enerji forumu-2020"-nin əsas məqsədi 2018-ci ilin avqustunda Avazada imzalanan Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya və Xəzəryanı ölkələr arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş əsasında Xəzər regionu ölkələrinin enerji sahəsində səmərəli əməkdaşlığının inkişafına təkan verməkdən ibarət idi.

Forumda geologiya və geofizika, habelə karbohidrogen ehtiyatlarının hasilatı və nəqlində texnologiya innovasiyalarının tətbiqi, enerji infrastrukturunun rəqəmsal transformasiyası sahəsində müştərək layihələrin işlənilməsi və həyata keçirilməsi, Xəzər dənizinin ekoloji təhlükəsizliyini təmin etməklə Xəzəryanı ölkələrin enerji komplekslərində hidrogen texnologiyalarının tətbiqi kimi məsələlər geniş müzakirə edilib.

Müxtəlif ölkələrdən olan nümayəndələrin iştirak etdiyi forumda AMEA-nın birinci vitse-prezidenti, akademiyanın Yer Elmləri Bölməsinin Elmi şurasının sədri, akademik İbrahim Quliyev də iştirak edib. Alim V.Kərimov, R.Mustafayev və A.Hüseynova ilə həmmüəllif olduğu "Xəzər-Qara dəniz regionunun karbohidrogen potensialı" mövzusunda məruzə ilə çıxış edib.

*Baş redaktordan*

**44 gün davam edən Vətən müharibəsi AZƏRBAYCANIN PARLAQ QƏLƏBƏSİ ilə başa çatdı və 30 ilə yaxın müddət ərzində işğal altında olan torpaqlar azad edildi. Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladılar. Bəyanata uyğun olaraq, 2020-ci il dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları da Azərbaycana təhvil verildi. Bununla da Azərbaycan Ermənistanı faktiki olaraq kapitulyasiyaya məcbur etdi.**



# Elmi informasiya

Azərbaycan Milli Elmlər Akademiyası Qarabağ savaşının elə ilk saatlarından elmi informasiya müharibəsinin ön cəbhəsində yer aldı.

**SENTYABRIN 27-DƏ Azərbaycan ordusunun əks-hücuma keçdiyi barədə rəsmi məlumat yayılandan cəmi bir neçə saat sonra AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev başda olmaqla Akademiyanın Rəyasət Heyəti operativ olaraq bəyanat yaydı.** Bəyanat Akademiyanın rəsmi saytında və digər internet resurslarında Azərbaycan, rus və ingilis dillərində yayımlandı. Bəyanatda qeyd olunurdu: *"...Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin əmrilə işğalçı Ermənistana qarşı bütün cəbhə boyu genişmiqyaslı əks-hücum əməliyyatına başlamışlar. ...Döyüş əməliyyatlarının gedişində erməni ordusuna endirilən sarsıdıcı zərbələr nəticəsində, düşmən çox sayda canlı qüvvə və texnika itirərək geri çəkilmək məcburiyyətində qalmışdır."*

Uğurlu hərbi əməliyyatların ölkə Prezidenti cənab İlham Əliyevin yürütdüyü qətiyyətli siyasətin və nail olduğu yüksək ordu quruculuğunun nəticəsi kimi dəyərləndirilən bəyanatda deyilirdi: *"Dövlət başçısı bir daha sübut etdi ki, Azərbaycan Silahlı Qüvvələri həqiqətən də bölgənin ən qüdrətli ordusudur və hərbçilərimiz qısa zamanda ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə, işğalçılara tutarlı cavab verməyə qadirdirlər."*

Bununla da AMEA Rəyasət Heyəti müharibənin elə ilk günü çoxminli Akademiya kollektivi adından

### QƏTİYYƏTLİ MÖVQE

nümayiş etdirdi:"Ölkə başçısı cənab İlham Əliyevi və xalqımızı əmin edirik ki, Azərbaycan Milli Elmlər Akademiyasının kollektivi hər zaman olduğu kimi bu həyəcanlı, məsuliyyətli və şərəfli anlarda da möhtərəm Prezidentimizin, dövlətimizin və ordumuzun apardığı haqlı mübarizəni ürəkdən dəstəkləyir və müdafiə edir. "Əlbəttə, Böyük Qələbənin uzaqda olmadığına Azərbaycanın ziyalı elitasının tam əminliyi elə anındaca bildirilmişdi: "Cəbhədən gələn hər növbəti qələbə xəbəri bütün azərbaycanlılar kimi Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşlarında da böyük qürur hissi oyatmış, vətənpərvərlik duyğularını qüvvətləndirmişdir. Azərbaycan əsgərinin tezliklə qələbə bayrağını Şuşaya, Xankəndiyə sancmaqla tarixi ədaləti bərpa edəcəyinə hər bir Azərbaycan vətəndaşı kimi alimlərimiz də ürəkdən əmindirlər. İşğal altındakı torpaqlarımızın düşmən tapdağından azad ediləcəyi günü hamımız səbirsizliklə gözləyir, bu günün o qədər də uzaqda olmadığına bütün varlığımızla inanırıq."

**SENTYABRIN 30-DA AMEA Rəyasət Heyətinin iclası keçirildi.** Tədbiri AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev açaraq sentyabrın 27-də səhər saatlarından etibarən Ermənistan silahlı qüvvələrinin təxribata əl ataraq cəbhəboyu ərazidə yerləşən Azərbaycan kəndlərini, həmçinin ordumuzun mövqelərini intensiv atəşə tutduğunu söylədi. Qeyd etdi ki, bu təxribata cavab olaraq Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin əmrilə işğalçı Ermənistana qarşı bütün cəbhə boyu genişmiqyaslı əks-hücum əməliyyatına başlayıb, ...7 kəndimiz, həmçinin strateji əhəmiyyətə malik yüksəkliklər erməni qəsbkarlarından təmizlənib.

Akademiya başçısı vurğuladı ki, bu parlaq qələbə, heç şübhəsiz ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü qətiyyətli siyasətin və nail olduğu yüksək ordu quruculuğunun nəticəsidir. Akademiya rəhbəri bu gün bütün Azərbaycan xalqının Prezidentimizin, dövlətimizin və ordumuzun apardığı haqlı mübarizəni ürəkdən dəstəklədiyini söylədi.

Arxa cəbhədə də fədakarlıqla çalışmağın vacibliyini vurğulayan akademik Ramiz Mehdiyev AMEA-nın elmi müəssisə və təşkilatlarında bir sıra ciddi uğurlu tədqiqatların aparıldığını və mühüm elmi nəticələrin əldə edildiyini diqqətə çatdırdı. Akademik bu gün alimlərimizin sağlam, məsuliyyətli və işgüzar prinsiplər əsasında çalışmasının və AMEA Rəyasət Heyətinin qərarlarının həyata keçirilməsinə öz töhfələrini verməsinin zəruriliyini vurğuladı.

**OKTYABRIN 2-DƏ AMEA Mətbuat və informasiya şöbəsinin məlumatı yayımlandı.** Məlumatda son günlər bəzi KİV-lərdə guya Akademiyada Qarabağla əlaqədar tədqiqatların aparılmadığı barədə AMEA-ya, onun rəhbərliyinə ünvanlanmış qərəzli çıxışlara cavab olaraq dolğun informasiya yer almışdı: "...Akademiyanın Tarix, Şərqşünaslıq, Hüquq və İnsan Haqları və digər institutlarının elmi işçiləri mütəmadi olaraq Qarabağ münaqişəsi, erməni təcavüzü mövzularında tədqiqatlar aparır, dövri mətbuatda daim çıxışlar edirlər.

Akademiya prezidentinə gəlincə isə, o, öz əsərlərində və çıxışlarında Azərbaycanın qanayan yarası olan Qarabağ münaqişəsinə, torpaqlarımızın işğalına hər zaman geniş yer verib, mövzuya xüsusi həssaslıqla yanaşıb. Akademikin qələmindən çıxan və aparıcı dünya dillərinə tərcümə edilərək nəşr olunan "Dağlıq Qarabağ: məxəzlərdən oxunmuş tarix", "Gorus-2010: absurd teatrı mövsümü" kimi kitab və başqa əsərlər bunun sübutudur. ...Akademik öz yaradıcılığında yalnız Qarabağ münaqişəsinə deyil, ümumilikdə ermənilərin öz tarixlərini saxtalaşdırmaq, həmçinin Azərbaycan xalqının keçmişini, mədəni irsini mənimsəmək istiqamətindəki fəaliyyətinə də böyük diqqət yetirib."

Mətbuat və informasiya şöbəsinin məlumatında xüsusi vurğulanırdı: "Bir daha Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırırıq ki, AMEA-nın 47 elmi müəssisə və təşkilatlarının əməkdaşları cənab Prezidentin Qarabağ məsələsində tutduğu mövqeyi və verdiyi qərarları birmənalı şəkildə dəstəkləyirlər. Biz akademiya kollektivi olaraq bir daha bu çətin günlərdə hər kəsi

### DÖVLƏT BAŞÇISI ƏTRAFINDA SIX BİRLƏŞMƏYƏ,

**bütün fikir ayrılıqlarını kənara qoymağa və ucuz intriqaların əsiri olmamağa çağırırıq."**

**OKTYABRIN 6-DA AMEA Rəyasət Heyətinin növbəti iclası keçirildi.** İclasda gündəlikdə duran məsələlərlə yanaşı, Vətən müharibəsi mövzusuna da xüsusi diqqət yetirildi. Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə Azərbaycan Ordusunun işğalçılara qarşı bütün cəbhə boyu genişmiqyaslı uğurlu əks-hücum əməliyyatı apardığını bir daha diqqətə çatdıran akademik Ramiz Mehdiyev bu əməliyyatların fonunda Azərbaycan alimlərinin ölkəmizin haqq davasında, Vətən mühabirəsində haqlı mövqeyinin beynəlxalq ictimaiyyətə çatdırılmasında, həmçinin gənclər arasında vətənpərvərlik istiqamətində təbliğatın aparılmasında, KİV-də mütəmadi olaraq sanballı elmi çıxışların edilməsində aktiv rol oynamalarının zəruriliyini bildirdi, Vətən tarixi elmi istiqamətlərində sanballı tədqiqatların aparılmasının əhəmiyyətini vurğuladı.

**OKTYABRIN 12-DƏ AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev dünya birliyinə, aparıcı beynəlxalq təşkilatların rəhbərlərinə müraciət ünvanladı.** Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan ordusunun cəbhəboyu zonada dinc əhaliyə, həmçinin hərbi obyektlərə qarşı həyata keçirdiyi silsilə təxribatlara cavab olaraq 30 ilə yaxındır ki, erməni işğalı altında olan Dağlıq Qarabağda və rayonlarda qəsbkara qarşı antiterror əməliyyatına başladığı qeyd olunan müraciətdə akademik Ramiz Mehdiyev bildirirdi: "Təəssüf ki, **Ermənistanın hərbi-siyasi rəhbərliyi döyüş meydanında uğradığı rüsvayçı məğlubiyyətlərin qisasını dinc azərbaycanlılardan almaq qərarına gəlmiş** və Azərbaycanın cəbhə bölgəsindən kənarda yerləşən **Gəncə, Bərdə, Ağcabədi, Naftalan, Mingəçevir və digər şəhərlərində** yaşayan mülki əhalini, infrastruktur obyektlərini hədəfə almaqla öz terrorçu mahiyyətini bir daha nümayiş etdirmişdir."

Müraciətini **haqqın, sağlam təfəkkürün və insanpərvərliyin təntənəsi ümidilə** bitirən Akademik Ramiz Mehdiyev AMEA kollektivi, həmçinin Azərbaycanın elmi ictimaiyyəti adından dünya birliyinə, aparıcı beynəlxalq təşkilatların rəhbərlərinə müraciət edərək, onlardan Ermənistanın ölkəmizin dinc vətəndaşlarına qarşı həyata keçirdiyi etnik terrora siyasi-hüquqi qiymət verilməsini tələb edirdi: *"XXI əsrdə Ermənistanın həyata keçirdiyi dövlət terroruna susmaq, onu görməzdən gəlmək bəşəriyyətin indiyədək əldə etdiyi bütün insani dəyərləri, hüquqi normaları tapdalamaq deməkdir. Dünya birliyi başa düşməlidir ki, Ermənistanın hərbi-siyasi rəhbərliyinin cinayətkar fəaliyyəti dayandırılmayacağı təqdirdə, Cənubi Qafqaz böyük və dəhşətli müharibənin meydanına çevrilə bilər. İnanmaq istərdim ki, dünya ictimaiyyəti ikili standartları, yersiz təəssübü bir kənara qoyub vicdanı və ədalət hissini rəhbər tutaraq işğalçı Ermənistan rəhbərliyinin törətdiyi hərbi cinayətlərin beynəlxalq aləmdə ifşası məqsədilə əməli addımlar atacaq. Bölgədə davamlı sülhün bərqərar olması bundan çox asılıdır."*

**OKTYABRIN 13-DƏ akademik Ramiz Mehdiyevin** Dağlıq Qarabağla bağlı dünya birliyinə, aparıcı beynəlxalq təşkilatların rəhbərlərinə **müraciəti təkcə azərbaycandilli və rusdilli deyil, ərəb və farsdilli mətbuatda** da geniş yayımlandı.

Hələ

### VƏTƏN MÜHARİBƏSİNİN İLK GÜNLƏRİNDƏN

**başlayaraq AMEA-nın prezidenti tərəfindən dünyanın bir sıra elmlər akademiyalarının və elmi mərkəzlərinin rəhbərlərinə məktublar ünvanlanırdı.** Akademiya rəhbəri müraciətlərində Azərbaycan xalqına, ümumiyyətlə insanlığa qarşı törədilən erməni təcavüzünə son qoyulması məqsədilə xarici dövlətlərin elmi ictimaiyyətini terrorçu Ermənistana təzyiq göstərməyə, Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılmasında iştirak etməyə çağırırdı. Məktublarda bildirilirdi ki, Ermənistanın və havadarlarının işğalçı siyasəti nəticəsində Azərbaycanın ən qədim torpaqlarından olan Dağlıq Qarabağ ərazisi və əlavə olaraq respublikamızın 7 rayonu zəbt edilmişdir. Erməni vandalizmi nəticəsində işğal edilmiş ərazilərdə Ermənistan tərəfi etnik təmizləmə siyasəti həyata keçirərək, həmin torpaqların qədim sakinləri olan azərbaycanlıları ərazidən qovub çıxarmış, **Xocalı qətliamı törətmişlər. Qeyd olunurdu ki, Dağlıq Qarabağda və ətraf rayonlarda kəndlər, məscidlər, qəbiristanlıqlar, tarixi memarlıq abidələri dağıdılmış, qədim toponimlər saxtakarcasına dəyişdirilmişdir.**

Məktublarda təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyinin öz təxribatçı əməllərini davam etdirərək, Cenevrə Konvensiyaları və ümumilikdə beynəlxalq hüquqdan irəli gələn müvafiq öhdəlikləri kobud şəkildə pozmaqla dinc əhalinin sıx yaşadığı yerləri, döyüş bölgələrindən kənarda yerləşən, mühüm strateji obyektləri olan Gəncə, Mingəçevir və Yevlax şəhərlərini, Abşeron və Xızı rayonlarını ağır silahlardan atəşə tutduğu da bildirilirdi. "Bu gün Azərbaycan Ordusu Ermənistan tərəfinin atəşkəs rejmini pozaraq törətdiyi ağır cinayətlərdən sonra özünümüdafiə və işğaldan xilas etmə tədbirlərinə başlamışdır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu erməni qəsbkarları tərəfindən işğal edilmiş ərazilərimizi geri qaytarmaq üçün əməliyyatlar keçirməkdə davam edir", - deyə məktubda vurğulanırdı. Azərbaycanın apardığı ədalətli müharibə ilə əlaqədar təqdim olunan obyektiv informasiyaların dünyanın elmi ictimaiyyətinə çatdırılmasına dair fikirlərin yer aldığı məktubda Azərbaycanın haqlı və ədalətli mövqeyinin dünya alimləri tərəfindən dəstəklənəcəyinə inam ifadə edilirdi.

**AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevlə Mətbuat və informasiya şöbəsi əməkdaşlarının apardıqları geniş və çoxistiqamətli müsahibə OKTYABRIN 14-DƏ Akademiyanın saytında, sonra isə "Elm" qəzetində yayımlandı.** Uzun illər idarəçilik sahəsində çalışmış bir insan və alim kimi fikirlərinin, əsərlərinin ictimaiyyət tərəfindən diqqətlə izlənməsi, maraqla qarşılanması elmi axtarışlarını daha böyük əzmlə davam etdirməyə həvəsləndirdiyini və hər zaman oxucularla və cəmiyyətimizlə səmimi olmağa çalışdığını diqqətə çatdıran akademik Ramiz Mehdiyev elə söhbətimizin əvvəlində öz inamını ifadə etmişdi: *"...Qarabağ münaqişəsinə bir bütün olaraq, ardıcıl şəkildə yanaşmaq, tam mənzərəni görməyə və dərk etməyə çalışmaq daha doğru olardı. Azərbaycanın siyasi rəhbərliyini müharibə variantını seçməyə vadar edən zərurət bir gündə yetişməyib. Dövlət başçısı cənab İlham Əliyevin də son günlərdəki çıxışlarında vurğuladığı kimi, uzun illər davam etmiş sülh danışıqlarının heç bir nəticə verməməsi, üstəlik, Ermənistanın hazırkı baş naziri Nikol Paşinyanın təxribat xarakterli bəyanatları və addımları, həmçinin Dağlıq Qarabağdakı qondarma kriminal rejimin səngiməyən təhrikedici hərəkətləri diplomatiyaya olan son ümidlərin də üzərindən xətt çəkmiş oldu.*

*Bəli, müharibə dağıntı, ölüm və insan faciəsi deməkdir. Biz bütün bu dəhşətləri Ermənistanın işğalı nəticəsində yaşamış bir xalqın nümayəndələriyik. Bu hisslərin və acıların nə demək olduğunu bizə izah etmək lazım deyil.*

*...Müharibəyə gətirib çıxaran və cənab Prezidentin səbr kasasını daşıran hadisələr bizim gözlərimiz önündə cərəyan edib. ...Mən ordumuzun bu məsələdə son sözü deyəcəyinə, işğalçıları torpaqlarımızdan qovacağına qətiyyən şübhə etmirəm. "Akademiya rəhbəri qürur hissini də açıq bəyan etmişdi: "Cənab Prezidentin qətiyyəti, xalqımızın vətənə bağlılığı, əsgərimizin rəşadəti və vətənpərvərliyi hər bir azərbaycanlı kimi məni də qürurlandırır. İnanıram ki, Azərbaycan dövləti cənab Prezident başda olmaqla, bütün Qarabağ üzərində öz suverenliyini bərqərar edəcək."*

Yuxarıda da qeyd etdiyim kimi, AMEA-nın kollektivi ordumuzun əks-hücum əməliyyatına başladığı gün Ali Baş Komandanımızın yanında olduğunu bəyan etmiş və bu haqq işində ordumuza hər cür dəstək verməyə hazır olduğunu bildirmişdi. *Bu dəstəyin öz əməli ifadəsini hansı addımlarda tapacağı* sualına akademik Ramiz Mehdiyev belə cavab vermişdi: "Elmlər Akademiyası şanlı ordumuzun zəfər yürüşünə münasibətini 27 sentyabrda Rəyasət Heyətinin AZƏRTAC-da yayılan bəyanatı ilə bildirdi. Növbəti günlərdə isə Akademiyada təşkil edilən bütün iclas və görüşlərdə dövlətimizə, ordumuza olan dəstək bir daha bəyan edildi. Əməli addımlara gəlincə, ilk növbədə onu qeyd etmək istəyirəm ki, Rəyasət

Heyətinin qərarı ilə Akademiyanın müxtəlif qurumları əldə etdikləri gəlirlərdən Silahlı Qüvvələrə Yardım Fondunun hesabına ümumilikdə **üç yüz otuz min manatdan çox** *(bu gün 400 min manata yaxın - A.Ş.)* vəsait keçirmişdir...

Digər tərəfdən mənim tapşırığımla Akademiyanın Yüksək Texnologiyalar Parkı öz rezidenti ilə birgə Silahlı Qüvvələrimizə müxtəlif növ yuyucu vasitələr, dərman ləvazimatları, isti geyimlər çatdırıb. Akademiyanın Təcrübə-Sənaye Zavodu ordumuzu müxtəlif növ mühərrik yağları ilə təchiz etmək üçün hazırdır...

Eyni zamanda, AMEA əməkdaşları qanvermə aksiyalarında da fəal iştirak edirlər. Akademiyanın iyirmi əməkdaşı isə hazırda könüllü olaraq ordumuzun sıralarında döyüşür. Bir daha təkrar edirəm ki, Akademiya ixtiyarındakı bütün imkanları ilə ordumuza dəstək verməkdədir. **Vətən torpaqlarının işğaldan azad edilməsi**-*sində Azərbaycanın dünyada tanıdılması istiqamətində əhəmiyyətli uğurlar əldə edilib. Ölkəmizdə hər il keçirilən müxtəlif mötəbər tədbirlər erməni təbliğatının Azərbaycan haqqında yaratdığı uydurmalar və miflərin böyük bir qismini dağıdıb."*

**HAŞİYƏ: Bu məqamda akademik Ramiz Mehdiyevlə apardığımız müsahibənin öz konseptual tarixi əhəmiyyəti ilə yüksək dəyərə malik olduğunu xüsusi vurğulamaq yerinə düşür.**

**VƏTƏN MÜHARİBƏSİNİN ARDICIL QƏLƏBƏLƏRLƏ DAVAM ETDİYİ GÜNLƏRDƏ** yüksək vətənpərvərlik duyğularına dəstək olmaq, ordumuzla birlik nümayiş etdirmək məqsədilə **AMEA-nın Əsas binası Azərbaycan və qardaş Türkiyənin bayraqları ilə bəzədildi.**

**OKTYABRIN 21-DƏ AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin açıqlaması** yayımlandı. Açıqlamada deyilirdi: "Qürur hissilə qeyd et-

**İkinci Qarabağ müharibəsi günlərində Şanlı ordumuza maddi, mənəvi, intellektual və informasiya dəstəyi Akademiyanın ən ümdə vəzifəsi oldu. Azərbaycan Milli Elmlər Akademiyasından Silahlı Qüvvələrə Yardım Fonduna köçürülmüş vəsaitlər haqqında OKTYABRIN 22-DƏ ətraflı məlumat çap olundu.**

**OKTYABRIN 22-DƏ** AMEA saytında verilmiş redaksiya məqaləsində qeyd olunur: "AMEA-nın elmi müəssisə və təşkilatları tərəfindən Silahlı Qüvvələrə Yardım Fonduna indiyədək 350 000 (üç yüz əlli min) manata yaxın vəsait ianə edilmişdir. Hazırda Akademiyada orduya maddi dəstək aksiyası böyük ruh yüksəkliyi ilə davam edir.

Bundan əlavə, elmi profilinə uyğun istehsal prosesi ilə məşğul olan AMEA-nın elmi müəssisə və təşkilatları tərəfindən cəbhə bölgəsinə 35 000 (otuz beş min) manat məbləğində müxtəlif təyinatlı məhsullar göndərilmişdir. Buna misal olaraq, AMEA-

də xüsusilə dayanan AMEA prezidenti ərəbdilli oxucuları bu təbliğata uymamağa çağırır.

Məqalənin digər bir qismində isə akademik Ramiz Mehdiyev Qarabağın mədəni mərkəzi olan Şuşa şəhərinin Azərbaycan mədəniyyətinin və elminin tarixində oynadığı müstəsna rola toxunmuş, bu şəhərin yetişdirdiyi görkəmli şəxsiyyətlər haqqında məlumat vermişdir.

Yekunda isə müəllif Qarabağın hətta sovet dövründə belə Azərbaycanın tərkibində olduğunu və dünya birliyi tərəfindən yekdilliklə Azərbaycanın ayrılmaz parçası kimi qəbul edildiyini xatırladaraq erməni işğalına və iddialarına son qoyulması üçün çağırış edir.

AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin Qarabağla bağlı məqaləsinin belə bir nüfuzlu informasiya resursunda dərc edilməsinin, tarixi həqiqətlərin çoxmilyonluq ərəb dünyasına çatdırılması baxımından

Mövzu ilə bağlı çıxış edən akademik Ramiz Mehdiyev qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin bilavasitə rəhbərliyi ilə müzəffər Azərbaycan ordusunun böyük şücaət və xüsusi peşəkarlıqla apardığı döyüş əməliyyatları nəticəsində qısa müddətdə düşmən tərəfindən müxtəlif istiqamətlərdə qurulmuş istehkam xətləri yarılıb, tarixi Azərbaycan torpaqlarının əhəmiyyətli bir hissəsi işğaldan azad olunub."Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ali Baş Komandan kimi döyüş əməliyyatlarına uğurla rəhbərlik etməklə yanaşı, olduqca mürəkkəb geosiyasi proseslərlə xarakterizə olunan müasir şəraitdə dərin intellekti, yüksək peşəkarlığı, diplomatik bacarığı ilə siyasi-ideoloji cəbhədə də yorulmadan çalışır, Azərbaycanın haqq səsini bütün dünyaya bəyan edir. İndi yaşından, etnik və dini mənsubiyyətindən, sosial mənşəyindən asılı olmayaraq, bütün Azərbaycan xalqı cəbhədə ordumuzun qələbələrinə öz töhfəsini vermək üçün Ali Baş Komandan İlham Əliyevin ətrafında

## BİR YUMRUQ KİMİ

**birləşib"**, - deyə akademik Ramiz Mehdiyev iştirakçıların diqqətinə çatdırdı.

# müharibəsinin ön cəbhəsində

**nə töhfə vermək üçün hər kəs kimi Akademiya əməkdaşları da əlindən gələni edir,** bunu özləri üçün

## ŞƏRƏFLİ BORC

hesab edirlər." Müsahibədə Akademiya rəhbəri informasiya müharibəsinin də önəmli olduğunu diqqətə çatdırmışdı: *"Biz yaxşı bilirik ki, müasir müharibə yalnız silahla deyil, informasiya və təbliğatla da aparılır. Alimlərimiz bu cəbhədə də səfərbər olunublar. Erməni işğalının bütün dəhşətlərini dünya ictimaiyyətinə çatdırmaq, apardığımız mübarizənin haqlı olduğuna hər kəsi inandırmaq üçün alimlərimiz fəal şəkildə mətbuatda çıxışlar edir, xaricdəki həmkarları ilə iş aparırlar. İnformasiya cəbhəsindəki aktivliyimiz birmənalı şəkildə davam edəcək və biz onu daha da böyük müstəviyə çıxarmaq üçün əlimizdən gələni edirik..."*

***Tarixi həqiqətlər barədə danışan AMEA rəhbəri bəzi məqamlara xüsusi diqqət ayırmışdı:*** " Bizim tarixi həqiqətlərə dair təbliğatımız sırf elmi əsaslara söykənməli, təhlil üzərində qurulmalıdır. Yalnız etibarlı mənbələr əsasında yazılan, müasir elmin meyarlarına cavab verən, oxunaqlı əsərlər və müsahibələr bizim işimizə fayda verə bilər...

İnformasiya müharibəsinin öz silahları, aparılma qaydaları və hədəfləri var. Bütün bunları bilmədən və nəzərə almadan uğur əldə etmək qeyri-mümkündür. Bəzən insanlarda, hətta alimlərimizdə də belə bir yanlış təsəvvür hökm sürür ki, təbliğat nə qədər gurultulu olsa, bir o qədər inandırıcı təsir bağışlaya bilər. Bu, səhv yanaşmadır. ...Uğurlu nəticənin əldə edilməsi üçün təbliğatın fəlsəfəsinə baxış dəyişməli və müasir dünyanın müvafiq praktikası dərindən öyrənilməlidir.

...Hər birimizə yaxşı məlumdur ki, Dağlıq Qarabağdakı xristian abidələrinin böyük bir qismi bizim əcdadlarımız olan Qafqaz albanlarının maddi-mədəni irsidir. Erməni ideoloqları zamanla bu irsi ya mənimsəyib, ya da məqsədli şəkildə məhv ediblər. Üstəlik, ermənilər dünyaya car çəkərək bəyan edirlər ki, Azərbaycan Dağlıq Qarabağdakı xristian-erməni abidələrini məqsədli dağıdır. Bu, ağ yalandır. Əksinə, Azərbaycan dövlətinin dəstəyi nəticəsində udi icmasının timsalında Alban kilsəsinin və mədəni irsinin dirçəldilməsi istiqamətində geniş miqyasda iş aparılır. İcmaya hər il dövlət tərəfindən maliyyə dəstəyi də göstərilir."

AMEA rəhbəri informasiya müharibəsi ilə bağlı fikirlərini belə yekunlaşdırmışdı: *"...Danılmaz həqiqətdir ki, son illər ərzində, ilk növbədə, şəxsən cənab Prezidentin səyləri nəticə-*

mək istəyirəm ki, Qarabağ məsələsində siyasi əqidəsindən, milli və dini mənsubiyyətindən asılı olmayaraq cəmiyyətimizin Prezidentin ətrafında bir yumruq kimi birləşməsi, işğalçıya öz qəzəbini və qətiyyətini nümayiş etdirməsi Azərbaycanın düşmən üzərindəki psixoloji üstünlüyünü daha da möhkəmləndirmişdir. Tariximizin şanlı səhifələrindən birinin yazıldığı bu günlərdə cəmiyyətimizdə hökm sürən mübariz əhval-ruhiyyə **30 ildən bəri yaşanan "məğlub xalq" sindromunu da birdəfəlik aradan qaldırdı.** Şübhəsiz ki, Azərbaycan xalqı hər birimizin vicdanımızdan bu ləkəni öz qanları ilə təmizlədikləri üçün qəhrəman əsgərimizə əbədiyyən minnətdar olacaqdır.

**Azərbaycan Prezidentinin son çıxışlarında şahidi olduğumuz qətiyyət bizi əmin edir ki, müharibə sonuncu erməni əsgərinin torpaqlarımızdan qovulacağı günə qədər davam edəcək.** Prezidentimizin bu sözləri xalqımızın ürəyindən xəbər verir və hər bir azərbaycanlının Qarabağ məsələsindəki həyəcanını, istəyini ifadə edir.

Ümumiyyətlə, qeyd etmək istəyirəm ki, Qarabağ döyüşlərində əldə olunan uğurlu nəticələr Azərbaycan Prezidenti cənab İlham Əliyevin yalnız görkəmli siyasi və dövlət xadimi deyil, həm də qətiyyətli Ali Baş Komandan, istedadlı sərkərdə olduğunu sübuta yetirdi. **İnanıram ki, xalqımız zəfər yürüşümüzün yekununda Prezident İlham Əliyevin bu tarixi xidmətini layiqincə qiymətləndirəcək. Əminəm ki,**

## PREZİDENT İLHAM ƏLİYEVİN ADI

**dövlətçilik salnaməmizə Şah İsmayıl Xətai, Şah Abbas, Nadir şah kimi görkəmli sərkərdələrin adı ilə yanaşı həmişəlik həkk olunacaq.**

Hər bir azərbaycanlı Ordumuzun 27 sentyabrda başladığı əməliyyatlara Şuşanın, Xankəndinin düşməndən təmizlənməsilə nöqtə qoyacağı günü səbirsizliklə gözləyir. Həmin gün uzaqda deyil. İllərlə aşılmaz kimi təqdim edilən erməni istehkamlarını bir neçə günün içində əzib keçən Azərbaycan əsgərinin bu vəzifənin də öhdəsindən şərəflə gələcəyinə əminəm. **Cənab Prezidentin iradəsi, ordumuzun döyüş ruhu, xalqımızın birliyi qarşısında miskin Ermənistanın təslim olacağı vaxta az qalıb.** Ölkə başçısının qeyd etdiyi kimi, biz Böyük Qayıdış ərəfəsindəyik. Səmimi qəlbdən hər bir azərbaycanlıya bu qayıdışı görməyi, onun sevincini yaşamağı arzulayıram."

Akademik açıqlamasını bu sözlərlə tamamlamışdı: **"Qarabağ - Azərbaycandır! Belə olub və həmişə də belə olacaq!"**

nın Yüksək Texnologiyalar Parkı və Neft-Kimya Prosesləri İnstitutu tərəfindən yanıqların müalicəsində uğurla istifadə olunan "Naftaterm-Ç" vasitəsini, dezinfeksiyaedici etil spirti və yod məhlullarını, ətirli maye sabunları, qabyuyan vasitələri, müxtəlif geyimləri, digər tibbi ləvazimat və ortepedik vasitələri nümunə göstərmək olar."

Qeyd edək ki, ötən müddət ərzində AMEA-nın elmi müəssisə və təşkilatlarının əməkdaşları qanvermə aksiyalarında da yaxından iştirak etmişlər.

...Yuxarıda qeyd olunan bütün istiqamətlər üzrə Akademiyada orduya dəstək aksiyası davam etməkdədir. Hazırda şanlı ordumuza maddi, mənəvi, intellektual və informasiya dəstəyi Akademiyanın ən ümdə vəzifəsidir."

**OKTYABRIN 23-DƏ** AMEA-nın rəsmi saytında daha bir açıqlama yayıldı. Açıqlamada qeyd olunur ki, "...Müharibənin başladığı ilk saatlarda AMEA-nın Rəyasət Heyəti yaydığı bəyanatında akademiya kollektivinin Qarabağın azadlığı məsələsində cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşdiyini və bütün imkanları ilə ordumuzun yanında olduğunu bəyan etmişdir. Müharibənin sonrakı günlərində də istər AMEA-nın prezidenti, istərsə də Rəyasət Heyətinin üzvləri və ayrı-ayrı institutların direktorları dövri mətbuatda məqalələrlə və müsahibələrlə çıxış etmişlər.

...AMEA prezidentinin Qarabağ həqiqətləri, Ermənistanın hərbi cinayətləri haqqında məqalə və bəyanatları ərəb, fars və ingilis dillərinə tərcümə edilərək "ENTER.NEWS" saytı vasitəsilə xarici auditoriyanın diqqətinə çatdırılmışdır."

**OKTYABRIN 25-DƏ** AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin

## "ƏCNƏBİ OXUCUNUN DİQQƏTİNƏ QARABAĞ HƏQİQƏTLƏRİ"

adlı məqaləsi Livanın tanınmış "əl-Məyadin" telekanalının rəsmi saytında dərc edilmişdir.

Məqalədə müəllif Qarabağ tarixinin bütün dövrlərini xronoloji qaydada təhlil etmişdir. Qarabağın zəngin arxeologiyası haqqında bəhs edilən giriş hissəsindən sonra akademik bölgənin Qafqaz Albaniyası və Ərəb xilafəti dövründəki tarixinə geniş diqqət ayırmış, tanınmış xarici və azərbaycanlı alimlərin tədqiqatları əsasında uydurma erməni iddialarına münasibət bildirmişdir. Xristianlıq pərdəsi altında qədim alban irsinin mənimsənərək bütün dünyaya yanlış olaraq erməni tarixinin bir parçası kimi təqdim edilməsi məsələsi üzərin-

böyük əhəmiyyət kəsb etdiyini xüsusi vurğulamalıyam.

**OKTYABRIN 29-DA AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin Fransa Respublikasının prezidenti Emmanuel Makrona açıq məktubu** dərc edildi. Məktubda qeyd olunur ki,son günlərdə Fransada İslam peyğəmbəri Hz.Məhəmmədi (s) hədəf alan təhqiredici karikaturaların sürətlə yayılması və bu xoşagəlməz təmayülün V Respublikanın rəhbərliyi, şəxsən Sizin tərəfinizdən açıq şəkildə dəstəklənməsi müsəlman dünyasının haqlı hiddəti və etirazı ilə qarşılanmışdır.

İkinci Qarabağ müharibəsinə də geniş yer verilən açıq məktubda deyilir: "Azərbaycanın Fransanın özü də daxil olmaqla bütün dünya tərəfindən tanınmış Dağlıq Qarabağ bölgəsini və ətrafındakı 7 rayonu 30 ilə yaxın işğal altında saxlayan Ermənistana dəstək verməklə Siz ölkənizin ATƏT-in Minsk qrupu çərçivəsində üzərinə götürdüyü vasitəçilik missiyasına qarşı çıxmış olursunuz.

...Hər vəchlə Dağlıq Qarabağdakı kriminal rejimin, həmçinin təcavüzkar Ermənistanın hərəkətlərinə bəraət qazandırmağa çalışan Fransa rəhbərliyi və mətbuatı nədənsə Gəncə, Mingəçevir, Bərdə, Tərtər şəhərlərində dinc Azərbaycan vətəndaşlarının raket hücumları nəticəsində qətlə yetirilməsi kimi hərbi cinayətlərə göz yumur."

Erməni işğalına dəstək olan, Azərbaycanın haqq işinə qarşı çıxmağa çalışan hər kəsin bu qəbildən olan cəhdlərin əbəs olduğunu bilməyini xüsusi vurğulayan Akademiya rəhbəri açıq məktubunu bu sözlərlə tamamlamışdır: ***"Prezident İlham Əliyevin qətiyyəti və ordumuzun rəşadəti, xalq-dövlət həmrəyliyi gec-tez Qarabağ müharibəsində Azərbaycanın haqq işinin təntənəsini təmin edəcək. Heç bir xarici qüvvə buna mane ola bilməyəcəkdir. QƏLƏBƏ HAQQINDIR!"***

AMEA Rəyasət Heyəti adından **SENTYABRIN 27-DƏN OKTYABRIN 3-DƏK** olan müddətdə **40-dan çox ölkənin 70-dən çox elm və təhsil təşkilatına, həmçinin beynəlxalq elmi cəmiyyət və assosiasiyalarına müraciət** göndərildi. Müraciətlərdə Qarabağın tarixi Azərbaycan torpaqları olması danılmaz faktlarla əsaslandırılır, ərazilərimizin 30 illik işğalından danışılır, dünyanın elmi ictimaiyyətindən haqlı mübarizəmizdə dəstək göstərilməsi istənilirdi.

**OKTYABRIN 30-DA Milli Elmlər Akademiyası Rəyasət Heyətinin növbəti iclasıAzərbaycanın işğaldan azad edilmiş ərazilərinə dair elmi tədqiqat işləri ilə bağlı AMEA-nın vəzifələri müzakirə olundu.**

Qarabağ bölgəsinin yalnız Azərbaycanın deyil, Cənubi Qafqazın qədim tarixə, unikal maddi və mədəni irsə, özünəməxsus flora və faunaya, zəngin yeraltı və yerüstü sərvətlərə malik mühüm regionlarından biri olduğunu deyən Akademiya rəhbəri **dünyanın ən qədim insan məskənlərindən birinin məhz Qarabağ ərazisində yerləşdiyini** xatırlatdı. Vurğuladı ki, otuz ilə yaxın düşmən tapdağı altında qalmış bu ərazilər bir tərəfdən beynəlxalq hüququn norma və prinsiplərinə, digər tərəfdən isə ümumbəşəri dəyərlərə zidd olaraq, amansız təhdidlərə məruz qalıb, işğal olunmuş ərazilərdə Azərbaycanla bağlı tarixi və mədəni irs tamamilə məhv edilib, azərbaycanlıların yaşayış məntəqələrinin adları və siması məqsədyönlü şəkildə dəyişdirilib, ərazilərdə qeyri-qanuni məskunlaşdırma işi həyata keçirilib. AMEA prezidenti, həmçinin regionun meşə örtüyünün məqsədli şəkildə məhv edildiyini, münbit torpaqların, su ehtiyatlarının ekoloji və radioaktiv çirklənməyə məruz qaldığını, bölgənin təbii landşaftının ciddi deformasiyaya uğradığını, qeyri-qanuni olaraq təbii sərvətlərin istismarının və mənimsənilməsinin həyata keçirildiyini söylədi.

**"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bəyan etmişdir ki, işğaldan azad edilmiş ərazilərdə həyatın yenidən dirçəlməsi, ən müasir sosial-mədəni infrastrukturun qurulması, kommunikasiya və nəqliyyat xətlərinin bərpası üçün dövlət tərəfindən ən qısa müddətdə kompleks tədbirlər həyata keçiriləcək"**, - deyə akademik bildirdi.

AMEA rəhbəri vurğuladı ki, **işğaldan azad edilmiş ərazilərdə dövlət tərəfindən həyata keçirilən kompleks tədbirlər kontekstində Azərbaycan elminin, Elmlər Akademiyasının üzərinə də xüsusi vəzifələr düşür.** Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ bölgəsinin otuz ilə yaxın işğal altında qalması ilə bu ərazilərin flora və faunasının, geoloji və coğrafi özəlliklərinin, yeraltı və yerüstü təbii sərvətlərinin, zəngin tarixi və mədəni abidələrinin sistemli və peşəkar elmi tədqiqatlardan kənarda qalmasına səbəb olduğunu qeyd edən AMEA prezidenti torpaqlarımızın işğaldan azad edilməsinin həmin ərazilərdə kompleks elmi tədqiqatların yenidən bərpa edilməsinə geniş imkan yaradacağını diqqətə çatdırdı.

*(davamı 6-cı səhifədə)*

# Elmi informasiya müharibəsinin ön cəbhəsində

*(əvvəli 5-ci səhifədə)*

Məsələnin geniş müzakirəsində akademik İsa Həbibbəyli dünyada ilk insanın yaşayış məskənlərindən biri hesab edilən Azıx mağarasında və Qarabağın digər tarixi ərazilərində arxeoloji, etnoqrafik tədqiqatların aparılması, türk mənşəli toponimlərin bərpa edilməsi, akademik Dilqəm Tağıyev Kimya Elmləri Bölməsinin qarşısında duran vəzifələr, eləcə də Azərbaycanın Qarabağ bölgəsinə aid faydalı qazıntı yataqlarına sahib çıxılması, hidrotexniki qurğuların təhlükəsizliyinin təmin olunması, akademik İradə Hüseynova isə işğaldan azad olunmuş torpaqların biomüxtəlifliyinin qorunması və həmin ərazilərdəki flora və faunanın "Qırmızı kitab"ın III nəşrinə daxil edilməsi istiqamətində fikirlərini bölüşdülər. Bundan əlavə, akademik Rasim Əliquliyev işğaldan azad edilmiş ərazilərdə müasir texnologiyalar əsasında yeni elmi infrastruktur layihələrinin həyata keçirilməsi və burada informasiya texnologiyalarının geniş tətbiq edilməsi, həmçinin Elektron Qarabağ çərçivəsində müəyyən işlərin görülməsi, AMEA-nın müxbir üzvü Əminağa Sadıqov bütün işlərin müasir dövrün tələblərinə uyğun modelləşdirilmiş müvafiq riyazi metodlar əsasında həyata keçirilməsi barədə danışdılar. Digər çıxış edənlər seysmoloji stansiyaların yenidən qurulması, geoloq alimlərimizin istismar edilmiş və həmçinin yeni faydalı qazıntı yataqlarının aşkarlanması barədə təkliflər səsləndirib, Cənubi Qafqazla bağlı bütün region xəritələrindən qondarma erməni adlarının çıxarılmasının Azərbaycan elminin Qarabağla bağlı tədqiqatlarının əsas göstəricisi olacağını söyləyib, Qarabağda torpaqlarla bağlı aparılan tədqiqatların arxiv mənbələri əsasında yenidən araşdırılmasının, zəngin yeraltı su ehtiyatlarımız olan kəhrizlərin bərpa edilərək xalqımızın istifadəsinə verilməsinin əsas prioritetlərdən olduğunu bildirdilər.

Qeyd olunanlar nəzərə alınaraq, **Qarabağ bölgəsinin tarixi, mədəniyyəti, arxeologiyası, etnoqrafiyası və təbii ehtiyatlarının, geoloji və coğrafi xüsusiyyətlərinin öyrənilməsi ilə bağlı kompleks tədqiqatların yenidən təşkili məqsədilə AMEA Rəyasət Heyəti bir sıra qərarlar qəbul etdi.** Belə ki, AMEA-nın

### QARABAĞ REGİONAL ELMİ BÖLMƏSİNİN YARADILMASI

və bu məsələnin AMEA-nın növbəti Ümumi yığıncağında müzakirə edilməsi qərara alındı. Bundan əlavə, AMEA-nın elmi bölmələrinə, eləcə də AMEA Rəyasət Heyəti aparatının struktur bölmələrinə akademiyanın müvafiq elmi müəssisə və təşkilatları ilə birlikdə Qarabağın işğaldan azad olunmuş ərazilərində elmi tədqiqat işlərinin bərpa edilməsi ilə bağlı təkliflərin hazırlanaraq Rəyasət Heyətinə təqdim edilməsi tapşırıldı.

**NOYABRIN 6-DA Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətində postkonflikt ərazilərin bərpasına elmi dəstək mövzusunda tədbir keçirildi.** AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev Rəyasət Heyətinin AMEA-nın Qarabağ Regional Elmi Bölməsinin yaradılması ilə bağlı qərarını xatırladıb, bununla əlaqədar elmi bölmələrə müvafiq tapşırıqların verildiyini diqqətə çatdırdı.

Tədbirdə AMEA Rəyasət Heyətinin bir sıra üzvləri də iştirak edərək fikir və mülahizələrini bildirdilər.

Müzakirələrin sonunda **AZƏRBAYCANDA**

### POSTKONFLİKT ƏRAZİLƏRİN BƏRPASI ELMİ MƏRKƏZİNİN YARADILMASI

haqqında qərar qəbul edildi.

**NOYABRIN 10-DA AMEA Rəyasət Heyəti Qələbə münasibətilə bəyanat yaydı. Bəyanatda deyilirdi:** "...Ermənistanın kapitulyasiyası mənasını verən bəyanat *(10 noyabr bəyanatı nəzərdə tutulur - A.Ş.),* heç şübhəsiz ki, istər hərbi, istərsə də siyasi baxımdan **Azərbaycan xalqının 30 ildən bəri davam edən haqlı mübarizədəki şanlı qələbəsini** rəsmiləşdirmiş oldu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyəti və ordumuzun şücaəti nəticəsində 1994-cü ildən bəri Ermənistanın işğalı altında olan rayonlarımız, həmçinin Qarabağın incisi Şuşa şəhəri düşmən tapdağından azad edilmiş, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrası və ölkəmizin ərazi bütövlüyü təmin olunmuşdur."

Azərbaycanın qazandığı bu əhəmiyyətli siyasi və hərbi qələbənin onun tarixində yeni mərhələnin başlanğıcı olduğu bildirilən bəyanatda deyilirdi: "Ölkə başçısının göstərdiyi iradə və şəhidlərimizin qanı bahasına biz bu yeni tarixi mərhələyə **qalib xalq, müzəffər ölkə** kimi qədəm qoyuruq. **...Yeni tarixi mərhələdə Azərbaycanı fərqli çağırışlar və məqsədlər, irimiqyaslı quruculuq işləri gözləyir.** Ölkəmizin cənab Prezidentin rəhbərliyi altında bu vəzifələrin də öhdəsindən şərəflə gələcəyinə əminlik ifadə edirik. AMEA kollektivi olaraq **həmişəki kimi bundan sonra da dövlət başçısının hər bir tapşırığını icra etməyə hazır** olduğumuzu bəyan edirik."

**NOYABRIN 10-DA** AMEA Rəyasət Heyətində **Dağlıq Qarabağ savaşında Azərbaycanın qələbəsi münasibətilə** tədbir keçirildi.

AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev çıxış edərək Azərbaycanın tarixi zəfəri ilə bağlı hər kəsi təbrik etdi.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bilavasitə rəhbərliyi ilə Azərbaycan ordusunun yeni bir tarix yazdığını diqqətə çatdıran AMEA rəhbəri **ölkə başçısının buna**

### 17 İLLİK GƏRGİN ZƏHMƏTİ SAYƏSİNDƏ

nail olunduğunu bildirdi. AMEA-nın prezidenti qeyd etdi ki, Dağlıq Qarabağa status verilməməsi, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsi, hər iki istiqamətdə maneəsiz hərəkətin təşkili məqsədilə **Azərbaycan Respublikasının Qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verilməsi** üçtərəfli imzalanmış sənədin əhəmiyyətini artıran bəndlərdəndir. 30 ilə yaxındır ki, davam edən mübarizədə şanlı qələbəmizin göstəricisi olan 10 noyabr tarixinin Azərbaycan üçün yeni iqtisadi, hərbi, siyasi mərhələnin başlanğıcı olduğunu bildirən Akademiya rəhbəri Ali Baş Komandan cənab İlham Əliyevin mükəmməl politoloq, ideoloq və görkəmli dövlət başçısı kimi bütün bu vəzifələrin öhdəsindən şərəflə gələcəyinə əminliyini ifadə etdi.

AMEA rəhbəri alimlərin Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ətrafında bundan sonra da sıx birləşəcəklərini diqqətə çatdıraraq AMEA-nın yeni yaradılacaq Qarabağ Regional Elmi Bölməsi tərəfindən kompleks proqramların həyata keçiriləcəyini bir daha qeyd etdi. AMEA rəhbəri bütün elmi-tədqiqat müəssisələrində qələbə tədbirlərinin keçirilməsini məqsədəuyğun hesab edərək müvafiq tapşırıqlarını verdi.

**NOYABRIN 10-DA akademik Ramiz Mehdiyevin geniş auditoriya üçün nəzərdə tutulmuş rus dilində "AZƏRBAYCANIN QARABAĞ MÜHARİBƏSİNDƏ QAZANDIĞI QƏLƏBƏNİN SİYASİ, TARİXİ VƏ İDEOLOJİ ƏHƏMİYYƏTİ" adlı məqaləsi** yayımlandı. Məqalədə deyilir: "Ərazilərin qaytarılması baxımından Azərbaycan çox şeyə nail olub. Ən əsas məsələ Naxçıvana dəhlizin açılmasıdır. Türkiyə öz növbəsində Naxçıvan tərəfə dəmir yolu çəkmək imkanını əldə edib. Bu layihənin həyata keçirilməsi birinci növbədə olduqca böyük siyasi əhəmiyyət kəsb edir...

...Haqq-ədalət isə qalib gəldi! Cəmi 44 gün (ay yarım) Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi altında davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan ordusu məğlub edilməz Ermənistan ordusu mifini alt-üst etdi. Düşmən sarsıdıcı zərbələr alaraq qaçmağa məcbur edildi. ...Qələbə ilə yekunlaşan müharibə Azərbaycan cəmiyyətinə əzm gətirdi, milyonlarla həmyerlimizi məğlub edilmiş millət kompleksindən azad etdi. Bir tək bunlara görə **Azərbaycan xalqı öz Prezidenti və ordusuna daim minnətdar olacaq."**

Məqalədə müəllif tərəfindən **müharibənin mühüm tarixi və ideoloji aspektinə diqqət** yönəldilir: *"Birincisi, Nadir şahın dövründən bu yana Azərbaycan ilk dəfədir ki, öz qədim torpaqlarını qaytarmağa müvəffəq olub. Şübhəsiz ki, bu hadisə tarixi əhəmiyyət daşıyır. İkincisi, müharibə nümayiş etdirdi ki, Azərbaycan cəmiyyəti ümumi düşmənlə üz-üzə qalarkən sıx birləşmək potensialına malikdir. Bu potensialı bundan sonra da inkişaf etdirmək xalqımızın və dövlətimizin maraqlarına uyğundur. Bu potensial zəngin Azərbaycan mədəniyyətinin və müzəffər ənənələrin sürətli inkişafı, Azərbaycan xalqının Prezident İlham Əliyevlə birliyi və hərbi əməliyyatlar zamanı şahidi olduğumuz yüksək vətənpərvərlik ruhunun qorunub saxlanılması baxımından olduqca vacibdir."*

Məqalədə daha bir məqam da xüsusi vurğulanır: "Bu 44 gün ərzində **Prezident İlham Əliyev özünü ideoloji cəbhənin əsl döyüşçüsü kimi göstərdi. O, ideoloq və tarixçidir, təbliğatçı və natiqdir. Lakin humanitar elitamız üçün Prezidentin çoxsaylı xarici jurnalistlərlə əminliklə və inamla dialoq aparmağı yadda qalan oldu.**

Unutmaq olmaz ki, bu mürəkkəb tarixi missiyanı o, aqressiv xarici basqılar şəraitində layiqincə yerinə yetirirdi. Fransanın siyasi rəhbərliyinin hərbi əməliyyatların ilk günündən başlayaraq Azərbaycana qarşı qərəzli hərəkətlərini və ifadələrini yada salmaq kifayətdir. Lakin Prezident İlham Əliyev həm buna davam gətirdi, həm də doğma torpaqların erməni işğalçılarından azad edilməsinə yönələn haqq mübarizəsini sona çatdırdı.

**Bu çətin günlərdə ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yaralı əsgər və zabitlərə qarşı nümayiş etdirdiyi analıq hisslərini və Azərbaycan ordusunun əldə etdiyi hər bir qələbəsindən sonra bölüşdüyü hissləri də qeyd etmək lazımdır. Onun**

### PREZİDENTİN SİRDAŞI VƏ ANA

**kimi keçirdiyi hisslər ən gözəl söz və təriflərə layiqdir.**

...Azərbaycan Ermənistanla apardığı müharibədə qələbə qazanaraq öz qədim torpaqlarını işğaldan azad etdi və tarixində təmamilə yeni səhifə açdı. Heç bir şübhə yoxdur ki, **bu mərhələdə ölkəmizi Prezident İlham Əliyevin rəhbərliyi altında yeni nailiyyətlər və qələbələr gözləyir.**

Bunu deməyə bizim hər bir əsasımız var. 17 illik prezidentliyi dövründə İlham Əliyev Azərbaycanın simasını təmamilə dəyişərək güclü orduya malik müasir, çiçəklənən dövlət qurdu."

**NOYABRIN 25-DƏ** AMEA Rəyasət Heyətinin nəzdində **Albanşünaslıq Elmi Mərkəzinin yaradılması** ilə bağlı iclas keçirildi.

AMEA-nın prezidenti iclası giriş sözü ilə açaraq Azərbaycan dövlətçiliyinin təşəkkülünün bir hissəsi olan Qafqaz Albaniyasının, həmçinin onun müasir dövrümüzə qədər gəlib çıxan və sovet dövründə tədqiqinə ciddi maneələr yaradılan məbədlərinin tarixinin bu gün daha sistemli şəkildə araşdırılmasına ehtiyac yarandığını bildirdi. 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımızdakı arxeoloji, etnoqrafik, memarlıq nümunələrinin ermənilər tərəfindən saxtalaşdırılmağa cəhdlər edildiyini deyən AMEA rəhbəri bu abidələrin sırasında Qafqaz Albaniyasının xristian irsinin xüsusi yer tutduğunu söylədi. Qeyd etdi ki, sözügedən maddi mədəniyyət nümunələrinin ölkəmizə məxsusluğuna dair tarixi həqiqətlərin beynəlxalq elmi ictimaiyyətə çatdırılması və **Prezident İlham Əliyevin Qafqaz Albaniyası ilə əlaqədar çağırışlarına cavab olaraq** AMEA-da

### ALBANŞÜNASLIQ ELMİ MƏRKƏZİNİN YARADILMASI

vacibdir.

**NOYABRIN 27-DƏ Livanlı məzunlar birliyinin katibi AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevə Qələbə münasibətilə təbrik məktubu ünvanladı. Məktub Akademiyanın rəsmi saytında və "Elm" qəzetinin səhifələrində çap olundu.**

Beyrutdan göndərilmiş məktubda qeyd edilir: *"...Sizin Qarabağ həqiqətlərilə bağlı dünya ictimaiyyətinə etdiyiniz müraciətin Livanın "Əl-Məyadin" telekanalının saytında ərəb dilində dərc edilməsi Qarabağda baş verənlərlə bağlı təhriflərin və qərəzli iddiaların ifşa olunmasında mühüm rol oynadı, Livan ictimaiyyəti üçün bir çox məsələləri aydınlaşdırdı."*

Beləliklə, Vətən müharibəsi günlərində Azərbaycan Milli Elmlər Akademiyasının çoxminli kollektivi elmi informasiya müharibəsinin önündə dayandı. AMEA alimləri bir sıra xarici ölkələrin kütləvi informasiya vasitələrində, televiziya və radio verilişlərində, canlı bağlantılarda iştirak etməklə yanaşı, mövzusundan aılı olmayaraq beynəlxalq onlayn elmi konfranslarda da Qarabağ həqiqətləri barədə geniş məlumat verdilər.

Ölkəmizin efir məkanlarında, kütləvi informasiya vasitələrində, elektron mediada saysız-hesabsız elmi, elmi-analitik, icmal məqalələri və çıxışlar yayımlandı.

Cəbhədə hərbi əməliyyatlarla yanaşı, qızğın informasiya müharibəsinin də getdiyi şəraitdə Akademiya əməkdaşları kütləvi informasiya vasitələrində aktiv çıxışları ilə diqqəti cəlb etdlər. **Ali Baş Komandana və Ordumuza dəstək, Qarabağ həqiqətləri, erməni irqçi ideologiyasının elmi əsaslarla ifşa edilməsi, dövlət siyasətinin təbliği, xalqımızın vətənpərvərlik ruhunun yüksəldilməsi** və s. istiqamətlərdə Akademiya əməkdaşları məqsədyönlü fəaliyyət göstərdilər.

Dağlıq Qarabağ müharibəsi ilə bağlı obyektiv məlumatların dünya ictimaiyyətinin diqqətinə çatdırılması məqsədilə xaricdə fəaliyyət göstərən beynəlxalq qurumlara, universitet və elmi mərkəzlərə, görkəmli alim və mütəxəssislərə alimlər tərəfindən saysız-hesabsız məktublar, bəyanatlar və müraciətlər də ünvanlandı.

Vətən müharibəsi günlərində AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev başda olmaqla Rəyasət Heyətinin digər üzvləri - AMEA-nın birinci vitse-prezidentləri, akademiklər İsa Həbibbəyli və İbrahim Quliyev, AMEA-nın vitse-prezidentləri, akademiklər - Tofiq Nağıyev, Dilqəm Tağıyev, İradə Hüseynova, Rasim Əliquliyev, akademiyanın akademik-katibi, AMEA-nın müxbir üzvü Əminağa Sadıqov və Rəyasət Heyətinin üzvləri akademik Cəmil Əliyev və akademik Gövhər Baxşəliyeva da AMEA rəhbərliyi tərəfindən keçirilən çoxsaylı tədbir və müzakirələrdə yaxından iştirak etdilər. Onların iştirakı ilə keçirilən bütün tədbirlər çap məhsulları ilə yanaşı tarixi stenoqramları ilə də yaddaşlara yazıldı.

**Özü də Vətən müharibəsinin ən qızğın günlərində!**

**Pandemiya şəraitində!**

**Sosial məsafə saxlanılmaqla, maska taxmaqla!**

**Komendant saatının tətbiq olunduğu ərəfədə!**

Həmin məsuliyyətli günlərdə AMEA-nın prezidenti, akademik

### RAMİZ MEHDİYEVİN GÜNDƏLİK TAPŞIRIQLARI

nəticəsində Akademiyanın Mətbuat və informasiya şöbəsi də arxa cəbhədə yorulmaq bilmədən öz sözünü geniş auditoriyaya çatdıra bildi. Rəhbərlik tərəfindən verilən bütün tapşırıqlar vaxtında, uğurla və operativ icra olundu.

**"Elm" ("Наука") qəzeti CƏBHƏ QƏZETİNƏ, saytımız CƏBHƏ TRİBUNASINA çevrildi.**

**Həftəlik nəşr olunan "ELM" ("Наука") qəzetinin bu ərəfədə "QARABAĞ AZƏRBAYCANDIR" ŞÜARI İLƏ 10 nömrəsi çapdan çıxdı, geniş elmi auditoriyaya yayıldı.**

**"ELM VƏ HƏYAT" jurnalının 2 nömrəsi (bir nömrə çap ərəfəsindədir) Qarabağ həqiqətlərindən bəhs etdi.**

**"ELM" TV özündə elmi informasiya yükü daşıyan operativ müsahibə və reportajları ilə yaddaşlarda qaldı.**

**SCIENCE.GOV.AZ portalı sözün əsil mənasında arxa cəbhənin elmi informasiya və icmal yazılarının, TƏDQİQAT MƏQALƏLƏRİNİN OPERATİV QƏRARGAHINA çevrildi. Yüzlərlə (!) xəbər və məqalələr, dəstək yazıları təkcə Azərbaycan dilində deyil, həm də rus və ingilis dillərində elmi ictimaiyyətə çatdırıldı və geniş internet məkanında bütün dünya oxucuları üçün əlçatan oldu.**

**AMEA-nın elmi informasiya müharibəsində fəaliyyəti bu gün də davam etdirilir. Bu dəfə isə istiqamət bir qədər dəyişib - axı bu gün hər bir yazı məhz QƏLƏBƏNOTLARI İLƏ yaradılır!**

**QƏLƏBƏMİZ MÜBARƏK!**

**YAŞASIN ALİ BAŞ KOMANDANIMIZ!**

**YAŞASIN AZƏRBAYCAN!**

**Ağahüseyn ŞÜKÜROV,**
*AMEA Rəyasət Heyəti aparatının Mətbuat və informasiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru*

## Azad Həmkarlar İttifaqı və ilk təşkilatlar tərəfindən "YAŞAT" fonduna ianə köçürülüb

**Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı əsasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək üçün "YAŞAT" Fondu yaradılıb.**

Fondun yaradılmasında məqsəd şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsidir.

Belə ki, AMEA-nın Azad Həmkarlar İttifaqı və ilk təşkilatlar da fonda yardım məqsədilə 16 min manat məbləğində ianə köçürüblər.

## Alimlərimizin layihəsi əsasında qatarlarda təhlükəsizlik sistemi müasir səviyyədə qurulacaq

**Strateji baxımdan mühüm geosiyasi məkanda yerləşən Azərbaycan tarix boyu diqqət mərkəzində olub. Təkcə neft və qaz ixrac edən ölkə kimi deyil, həm də Asiya və Avropa qitələri arasında hər zaman körpü rolunu oynayıb. Bu gün ölkəmiz Bakı-Tbilisi-Qars dəmiryolu xətti, "Şimal-Cənub", "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizləri və s. kimi regional və qlobal enerji, nəqliyyat layihələrinin təşəbbüskarı, fəal iştirakçısı rolunda çıxış edir.**



AMEA-nın İdarəetmə Sistemləri İnstitutunun alim və mütəxəssisləri də ölkəmizə bu işdə öz töhfələrini vermək üçün çalışırlar. Müəssisənin direktoru, akademik Telman Əliyev bildirib ki, institutun əməkdaşları "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizi boyunca "dəmir yolu yatağının təhlükəsizliyi", "öncədən seysmik xəbərdarlıq sistemi" kimi layihələr təklif ediblər.

Onun sözlərinə görə, təklif olunan layihələr artıq uğurla sınaqdan keçirilib. Akademik bu layihələrin "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizinin iştirakçıları olan Gürcüstan, Polşa və digər ölkələr tərəfindən də maraqla qarşılandığını vurğulayıb.

## Kəlbəcərin beş min illik qayaüstü rəsmləri dünyaya tanıdılmalıdır

**Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri hesab edilən Kəlbəcər rayonu qayaüstü rəsmləri, tarixi abidələri ilə zəngindir.**



AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi şurasının üzvü, tarix elmləri doktoru, professor Qüdrət İsmayılzadə ömrünün 20 ildən çoxunu Kəlbəcərin Alagöl, Zalxagöl və Qaragölün sahillərində, həmçinin Pəriçınqılı, Ayıçınqılı, Lülpər sahələrində qayaüstü təsvirlərin aşkarlanmasına həsr edib. Azərbaycanın belə yüksək dağlıq zonasında 8000-ə yaxın qayaüstü rəsmləri üzə çıxaran alim mövzu və bədii dolğunluq baxımından Kəlbəcər təsvirlərinin tayı-bərabəri olmadığını deyir.

Onun sözlərinə görə, Kəlbəcərin qayaüstü təsvirlərində ailə-məişət, təsərrüfat işləri və yerli tayfaların səma cisimləri ilə bağlı dünyagörüşü əks olunub. Bu təsvirlərdən ən qədiminin tarixi e.ə. IV-III minilliyə təsadüf edir.

Arxeoloq alim Kəlbəcər rəsmlərini Qobustan qayaüstü təsvirləri ilə müqayisə edərək, abidələrin oxşar və fərqli xüsusiyyətlərini də diqqətə çatdırıb.

Alimin sözlərinə görə sözügedən qayaüstü təsvirlər yenidən tədqiq olunaraq ən qədim insan məskənlərindən biri olan Qobustanın "əkizi" kimi dünya səviyyəsində tanıdılmalıdır.

## Parafinli neftlərin uzaq məsafəyə nəqlinə imkan verən aşqar istehsal edilir

**Akad. Ə.Quliyev adına Aşqarlar Kimyası İnstitutunda (AKİ) yaradılmış və tətbiq üçün tövsiyə edilmiş bəzi elmi-tədqiqat işlərinin nəticələrinin AMEA-nın Yüksək Texnologiyalar Parkının rezidenti olan "Aşqar" Elmi İstehsalat Birliyində (EİB) reallaşması üçün müvafiq işlər aparılır.**




Belə ki, AKİ-də yaradılmış, parafinli neftlərin donma temperaturunu aşağı salmaqla onların uzaq məsafəyə nəqlinə imkan verən "Depressator AKİ" aşqarı "Aşqar" EİB-də böyük miqyasda istehsal edilir.

"Depressator AKİ" aşqarı yüksək parafinli neftlərin (Qazaxıstan və Türkmənistandan Səngəçal terminalına daxil olan neftlər) Bakı-Ceyhan neft kəməri ilə uzaq məsafəyə ötürülməsində istifadə olunur.

## Görkəmli qazax şairi Abay Kunanbayevin 175 illiyi qeyd olunub

**Dekabrın 9-da AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda görkəmli qazax şairi Abay Kunanbayevin 175 illiyinə həsr olunan elmi sessiya keçirilib.**

Tədbiri AMEA-nın birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli açaraq Abay Kunanbayevi XIX əsr qazax modern ədəbiyyatının qurucusu və ilk realist şairi kimi qiymətləndirib, şairin 175 illiyinin türk dünyasında geniş qeyd olunduğunu və akademiyada da il ərzində bununla bağlı bir sıra tədbirlərin keçirildiyini bildirib. Akademik İ.Həbibbəyli Şərqşünaslıq İnstitutunun keçirdiyi elmi sessiyadakı məruzələrin Azərbaycan Abayşünaslığını zənginləşdirəcəyinə əminliyini vurğulayıb.

Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva isə diqqətə çatdırıb ki, Abay Kunanbayev XIX əsr qazax yazılı ədəbiyyatında şeirə mövzu, forma, dil, üslub, vəzn yenilikləri gətirmiş qüdrətli söz ustadıdır. 2020-ci ilin TÜRKSOY tərəfindən "Abay ili" elan edildiyini xatırladan akademik G.Baxşəliyeva



Şərqşünaslıq İnstitutunda Abay yaradıcılığı ilə bağlı tədqiqatlar aparıldığını və hazırkı elmi sessiyanın da müəssisənin bu istiqamətdə mühüm addımlarından olduğunu deyib.

Tədbirdə Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə elmlər doktoru, professor Elman Quliyev "Abay Kunanbayevin lirikası" mövzusunda məruzə edib. Şairin lirik yaradıcılığı barədə ətraflı danışan E.Quliyev Abay Kunanbayev poeziyasının rəngarəng mövzu dairəsi olduğunu, onun əxlaqi-didaktik şeirlərində təhsil, elm və tərbiyə məsələlərinin əks olunduğunu, həmçinin mənəvi-əxlaqi meyarların müəyyənləşdirildiyini qeyd edib. Məruzəçi bildirib ki, Abay Kunanbayev klassik poeziya və xalq şeiri ənənələrindən bəhrələnərək onlara yaradıcı yanaşıb, gözəl poetik nümunələr ərsəyə gətirib və onun şeirə dil, üslub, mövzu baxımından gətirdiyi yeniliklər qazax ədəbiyyatında yeni şeir ənənəsinin əsasını qoyub.

Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Təranə Həşimova isə "Müasir qazax yazılı ədəbiyyatının banisi Abay Kunanbayev və dünya ədəbiyyatı" mövzusunda məruzə edib. T.Həşimova bildirib ki, şair qazax folklorundan, qazax poeziyasından, eyni zamanda klassik Şərq poeziyasından bəhrələnərək qazax ədəbiyyatına yeniliklər gətirib. Şairin dünyagörüşünün formalaşmasında Şərqin alim və şairləri qədər Qərb mütəfəkkirlərinin də rolu olub. Böyük maarifçi Abay Kunanbayevin Şərq və Qərb ədəbi mühitinə necə daxil olmasından danışan məruzəçi, onun şeir yaradıcılığının ilk dövründə Şərqin böyük mütəfəkkirləri sırasında böyük Nizami və Füzulinin sənəti və şəxsiyyəti qarşısında hesabat verdiyini bildirib, şair kimi formalaşmasında onların sənətinin böyüklüyünü qeyd etməsinə dair nümunələr gətirib.

Sessiyanın sonunda məruzələr ətrafında müzakirələr aparılıb.

## Əbdürrəhim bəy Haqverdiyevin ictimai və fəlsəfi fikirləri

**Əbdürrəhim bəy Haqverdiyev 1870-ci ildə Laçın rayonunun Sarıbaba (keçmiş Ağbulaq) qəsəbəsində dünyaya göz açıb. 11 dekabr 1933-cü ildə Bakıda vəfat edib. O, dilçi, yazıçı, dramaturq və publisist olmaqla yanaşı, həm də gözəl tərcüməçi, ictimai xadim və mütəfəkkir olmuşdur.**

Azərbaycanın realist ədəbiyyatının görkəmli simalarından biri Əbdürrəhim bəy Haqverdiyevdir. XIX əsrin son illərindən ədəbiyyat səməsinə addım atmış Haqverdiyev dolğun və məzmunlu əsərləri və hekayələrilə məşhurlaşmış, həm də ictimai xadim kimi realist Azərbaycan ədəbiyyatının inkişafında mühüm rol oynamışdır.

O, hazırkı Bakı Dövlət Universitetində ədəbiyyatdan mühazirələr oxuyub, maarifçilik ənənəsini davam etdirmişdir. Onun, həmçinin dramaturq olduğu aydındır. Xalqın maariflənməsində teatrın rolunu xüsusi vurğulayaraq, qeyd edirdi ki, xalqla danışmaq, onu maarif və mədəniyyətə çağırmaq üçün ən yaxşı vasitə teatr sahəsidir. Uşaq və gənclərin milli-mənəvi dəyərlər uğrunda tərbiyə olunması, vətənə məhəbbətin formalaşması və ailə dəyərlərinin qorunması üçün də ən yaxşı vasitə ədəbiyyat və teatrdır. Onun "Ata və oğul" hekayəsi bunun ən bariz göstəricisidir.

"Təfəkkür" ümumilikdə fəlsəfə elminin predmetidir. Adətən mütəfəkkir ifadəsi fəlsəfə elmi ilə məşğul olan şəxlərə deyilir. Qeyd etmək lazımdır ki, fəlsəfə ilə iki növ məşğul olmaq olar: Birincisi, ixtisasca fəlsəfə ilə məşğul olan və fəlsəfi əsərlər yazmaq, digəri isə hər hansı bir mövzunun üzərində fəlsəfi düşüncəni təhlil və analiz etmək. Burada isə Haqverdiyev barəsində "mütəfəkkir" sözü pafos olaraq işlədilməyib. O, həqiqətən də düşünən və düşündürən yazıçı filosoflardandır.

Əbdürrəhim bəy Haqverdiyevin əsas istiqaməti dilçilik idi. Onun "Ədəbi dilimiz" məqaləsi qızğın müzakirələrdən aldığı təəssüratın nəticəsidir. Ə.Haqverdiyevin tərcüməçi olmasına isə aşağıdakı tərcümələri



nümunə kimi göstərmək kifayətdir. A.Çirikovun "Yəhudilər" əsəri, M.Qorkinin "İzergil qarı və qeyri hekayələr". Yazıçı olmasına "Şikayət", "Xortdanın Cəhənnəm Məktubları", "Bomba", "Mirzə Səfər" kimi hekayətləri kifayətdir. Qeyd etmək yerinə düşər ki, Haqverdiyev "Mirzə Səfər" hekayəsini cümhuriyyət dövründə yazmışdır. O, həmdə tənqidçi olmuşdur. Hər bir cəmiyyətdə "tənqidçilik" ənənəsinin olması çox mühümdür. Tənqid cəmiyyətə daha geniş üfüqlər açır. Azərbaycan cəmiyyətində Haqverdiyev tənqidçilik məktəbi yaratmışdır: Həmid Araslı, Mir Cəlal, İlyas Əfəndiyev, Əli Nazim, Famil Mehdiyev, Cəfər Xəndan, Rahilə Qeybullayeva kimi tənqidçilər o məktəbin yetirmələrindəndir. Onun "Tənqidə tənqid" yazısı və sair əsərlərini buna nümunə göstərmək olar.

İctimai xadim məsələsində Ə.Haqverdiyevin dinə münasibəti əsas yer tutur. Burada onun haqqında iki əsas fikir ayrılığı var. Birincisi, o, birmənalı olaraq dini qəbul etməyib. Hətta onu inkar belə etmişdir. İkincisi, o, dini cəmiyyətdə məqbul sayır, sadəcə xurafat və mövhumatla mübarizə aparmışdır.

Apardığımız qısa araşdırma nəticəsində qeyd edə bilərik ki, o, dinin özü ilə mübarizə aparmayıb, sadəcə cəmiyyətdə olan bəzi köhnə ənənələr, xurafat və mövhumata qarşı çıxmışdır. Bəzən sual olunur ki, Haqverdiyevin bir başa dinin əleyhinə olan əsərlərini də müşahidə edirik. Belə olan təqdirdə bizdə ona cavab budur: Əlbəttə bu məsələdə onun dövrünü və xüsusən Sovet hökumətinin formalaşması illərini diqqətə almaq lazımdır. Bir sözlə, mütəfəkkirlər belə dövrünün uşaqlarıdır. Haqverdiyevin yaradıcılığını iki əsas hissəyə bölmək olar. Birincisi, 1870-dən 1920-ci ilin aprel ayının 28-dək, yəni Qızıl ordunun Bakını işğalınadək olan yaradıcılıq dövrü. İkincisi, 1920-ci ilin mayından 1933-cü ilin 12 dekabr, yəni vəfatınadək. Məsələyə kompleks şəkildə baxdıqda, onun o dövrdə belə ifrata varmaması və sırf maarifləndirici mövzulara köklənməsi və normal vəziyyətlə hərəkət etməsinin şahidi oluruq. Onun uzaqgörənliyi və mütəadil vəziyyətdə olması buna başqa bir sübutdur.

Haqverdiyev həm öz ölkəsinin, həm də digər xalqların tarixinə yaxşı bələd olan alim olması səbəbilə, 1924-cü ildə Rusiya Elmlər Akademiyasının ölkəşünaslıq bürosuna müxbir üzv seçilmişdir.

Ə.Haqverdiyevin bir ədib-mütəfəkkir kimi xüsusiyyətlərini belə sadalamaq olar:

1. O, Azərbaycanda novellanın banisi və yaradıcısıdır.
2. İlk dəfə mükalimə tipli hekayəni Azərbaycan ədəbiyyatına o gətirmişdir. Onun elə hekayələri var ki, başdan-başa dialoqdur. Aydındır ki, bu növ hekayə yazmaq xüsusi bacarıq tələb edir.
3. Azərbaycan ədəbiyyatında silsilə hekayələr yazmaq Haqverdiyevlə başlamışdır.
4. Ehtiras onun yaradıcılığının əsas istiqaməti olmuşdur. Burada ehtirasda məqsəd şəhvət deyil. İki cür yaradıcılıq var: istiqanlı və soyuqqanlı. Haqverdiyev istiqanlı yaradıcılar qrupuna aiddir.
5. Onun əsərləri yığcam və axıcıdır. O, sözün kəsərinə diqqət etmişdir. Ədəbiyyatda o, kəmiyyətə yox, keyfiyyətə diqqət edən ədiblərdəndir.

Sonda qeyd etmək yerinə düşər ki, AMEA Ədəbiyyat İnstitutu 2019-cu ildə "Sənətkarın elmi pasportu" seriyasını "Əbdürrəhim bəy Haqverdiyev həyatı və yaradıcılığı"na həsr etmişdir.

**Əlәddin MƏLİKOV**
**AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, Azərbaycan İlahiyyat İnstitutunun dosenti, fəlsəfə üzrə elmlər doktoru**

# Qarabağda kəşf edilmiş arxeoloji mədəniyyətlər

**Azərbaycanın bütün əraziləri qədim tarixin hər bir mərhələlərinə aid abidələrlə zəngindir. Əlverişli təbii-coğrafi şərait ən qədim zamanlarda bu ərazilərdə insan məskunlaşmasını şərtləndirmişdir. Cənubi Qafqazın ayrı-ayrı bölgələrində, lokal məkan çərçivəsində qədim tarixin müxtəlif mərhələlərinin abidələri aşkar edilmişdir. Lakin Qarabağ, Naxçıvan və Gəncə-Qazax bölgələrinin maddi mədəniyyətində tarixi dövrlərin ardıcıllığı daha aydın şəkildə izlənilir.**

Qarabağ ərazisində yalnız Mezolit (orta daş) dövrü istisna olmaqla bütün tarixi-arxeoloji dövrlər çoxsaylı abidələrlə təmsil olunmuşdur. İşğaldan azad edilmiş Qarabağ və ətraf rayonlarda hələ sovet dövründə bir sıra səbəblərdən ətraflı arxeoloji tədqiqat işləri aparılmamışdır. Ermənistanın bu əraziləri işğal etməsi səbəbindən son 30 ilə yaxın müddətdə həmin ərazilər Azərbaycan alimləri üçün əlçatmaz olmuşdur. Yaxın illərdə bu bölgədə aparılacaq arxeoloji axtarış işləri nəticəsində bu günə qədər elmə məlum olmayan çoxsaylı abidələrin aşkar ediləcəyinə şübhə yoxdur. Eyni zamanda bu ərazilərdə Mezolit dövrünə aid abidələrin də qeydə alınacağı istisna deyildir. Ərazinin zəngin təbii-coğrafi şəraiti belə düşünməyə əsas verir.

Müəyyən ərazilərdə əsasən ilk klassik dövlətlərin meydana çıxmasına qədərki dövrlərə aid tədqiq edilən arxeoloji abidələr, aşkar edilmiş maddi mədəniyyət nümunələri səciyyəvi xüsusiyyətlərinə görə (abidələrin, tapıntıların digər bölgələrdəki abidələrdən və tapıntılardan seçilən tipoloji, xronoloji fərqləri əsasında) elmdə "arxeoloji mədəniyyət" anlayışında birləşdirilirlər. Elmdə ilk dövlətlər dövrünə aid maddi mədəniyyət ənənələrinin də arxeoloji mədəniyyətlər tipində qruplaşdırılması halları da mövcuddur. Arxeoloji mədəniyyətlərin adları şərtidir və ilk tədqiq edilən abidənin/abidələrin, onların yerləşdiyi bölgənin və ya spesifik arxeoloji materialların adları ilə ifadə edilir. Arxeoloji mədəniyyətlər, onlarda qruplaşdırılmış abidələr konkret coğrafiyada yaşamış qədim əhalinin həyat tərzinin, dəfn adətlərinin, istehsal mədəniyyətinin məcmusunu özündə birləşdirir. Bu baxımdan arxeoloji mədəniyyətlər həm sadalanan elmi problemlərin, həm də etnogenez tarixinin ilk mərhələlərinin öyrənilməsi üçün mühüm əhəmiyyətə malikdir.

Elmi tədqiqatlarda bütövlükdə Cənubi Qafqaz üzrə 10-dan bir qədər artıq arxeoloji mədəniyyətlər müəyyən edilmişdir. Onlardan dördü Qarabağda, daha dəqiq Xocalı, Xocavənd və Ağdam rayonlarındakı abidələrin arxeoloji tədqiqatları əsasında kəşf edilmişdir. Bu bir daha Qarabağın tarixin müxtəlif mərhələlərinə aid arxeoloji abidələrlə çox zəngin bir bölgə olduğunun əyani göstəricisidir.

Xronoloji ardıcıllığa görə Qarabağda kəşf edilmiş ən qədim arxeoloji mədəniyyət Paleolit dövrünə aid "Quruçay mədəniyyəti"dir. 1960-cı ildə Məmmədəli Hüseynov tərəfindən o zamankı Hadrut rayonunda (indi Xocavənd rayonunun ərazisinə daxildir), Quruçay çayının dərəsinə yaxın yerdə yerləşən Azıx mağarasında qədim daş dövrünə aid ibtidai insan düşərgəsi aşkar edilmişdir. Onun rəhbərliyi ilə bu arxeoloji abidədə 20 ildən artıq qazıntı işləri aparılmış, ümumi qalınlığı 14 m-dən çox olan 10 mədəni təbəqə tədqiq edilmişdir. Düşərgənin alt - 7-10-cu təbəqələri yuxarıdakılardan həm geoloji strukturuna, həm də daş alətlərin xüsusiyyətinə görə seçilir. Bu təbəqələrdə, xüsusilə də 10-cu təbəqədə daha primitiv, kobud daş alətlər - "iki əllə istifadə edilmiş iri daş alətlər (qiqontalitlər)" aşkar edilmişdir. Bu alətlərin özünəməxsus, lokal xüsusiyyətlərinə görə professor M.Hüseynov 7-10-cu təbəqələr əsasında "Quruçay arxeoloji mədəniyyəti"ni kəşf etmişdir (Гусейнов М. Древний палеолит Азербайджана. Баку: 1985). Uzun illərdən sonra Mingəçevir yaxınlığında və Dağıstanda bu tip alətlərin aşkar edilməsi ilə "Quruçay mədəniyyəti" Qafqaz elmində özünün əsaslı təsdiqini tapdı (Зейналов А.А., Последнее убежище неандертальца. Баку: 2016).

Keçən əsrin 80-ci illərinin əvvəllərində İdeal Nərimanov Ağdam rayonunun Quzanlı kəndi yaxınlığında Leylatəpə adlandırılan Xalkolit dövrünə (e.ə. V minilliyin sonu - IV minilliyin birinci yarısına) aid yaşayış yerində arxeoloji qazıntılar zamanı Cənubi Qafqazın həmdövr abidələrinin tapıntılarından kəskin seçilən maddi mədəniyyət qalıqları aşkar etmişdir. Görkəmli alim bu tapıntıların



məcmusunu abidənin adı ilə "Leylatəpə mədəniyyəti" adlandırmış, onun mənşəyinin isə qədim Mesopotamiya ilə bağlı olduğunu qeyd etmişdir (Нариманов И.Г. Обейдские племена Месопотамии в Азербайджане / Всесоюзная археологическая конференция "Достижения советской археологии в ХЫ пятилетке". Тезисы докладов. Баку: 1985). Son 15-16 ildə Azərbaycanda aparılmış arxeoloji araşdırmalarla Leylatəpə mədəniyyətinin daha geniş arealda yayıldığı, Şərqi Anadolu və Şimali Mesopotamiya ilə bağlı olduğu, bu mədəniyyətin bazasında Şimali Qafqazda Maykop mədəniyyətinin yarandığı müəyyən edilmiş, bu mədəniyyət beynəlxalq elmdə öz təsdiqini tapmışdır. Leylatəpə arxeoloji mədəniyyətinin başlıca göstəriciləri yaşayış yerlərinin özünəməxsus tikililəri, vəfat etmiş körpə uşaqların saxsı qablarda dəfn edilməsi, dulus çarxında formalaşdırılmış yuvarlaq altlıqlı, bəzən üstündə dulusçu işarələri olan saxsı qabların istehsalı və s. ibarətdir (Museibli N. The Leilatepe Archaeological Culture: Its Near-Eastern Roots and its Place in the Caucasus Chalcolitihc // International Symposium on East Anatolia South Caucasus Cultures. Proceedings I. Pp. 58-75. Cambridge Scholars Publishing: 2015).

Orta Tunc dövründə (e.ə. II minilliyin birinci yarısı) Cənubi Qafqazda bir neçə arxeoloji mədəniyyət yayılmışdır. Keçən əsrin 50-ci illərində Ağdam şəhəri yaxınlığındakı Üzərliktəpə qədim yaşayış yerində aparılmış arxeoloji qazıntılar aşkar edilmiş maddi mədəniyyət qalıqlarının, xüsusilə də kütləvi istehsalın məhsulu olan keramika nümunələrinin fərqli xüsusiyyətlərini müəyyən etdi. Sonrakı illərdə qazıntının müəllifi (K.Kuşnaryova) və digər erməni əsilli arxeoloqlar Üzərliktəpənin tapıntılarını indiki Ermənistan ərazisindəki abidələrin materialları ilə eyniləşdirərək bütün bu abidələri "Sevan-Üzərlik qrupu" kimi müəyyənləşdirmişlər (Кушнарева К.Х. Южный Кавказ в ЫХ-ЫЫ тыс. до н.э. Санкт-Петербург: 1993). Mil-Qarabağın bir sıra digər abidələrində də Üzərliktəpə tipli tapıntılar aşkar edilmişdir.

Lakin Üzərliktəpəni Cənubi Qafqazın digər Orta Tunc dövrü abidələrindən fərqləndirən iki əsas cəhət var. Birincisi, Üzərliktəpənin səciyyəvi keramika məmulatı qara və ya tünd boz rəngli, üzəri basma-kəsmə üsulu ilə naxışlanmış tipoloji seçilən qablardan ibarətdir. Burada boya naxışlı keramika cəmi 2 % təşkil edir. Halbuki Cənubi Qafqazın digər Orta Tunc dövrü abidələrinin saxsı qablarının böyük əksəriyyəti məhz boyalı qablardır. İkincisi, Üzərliktəpənin mədəni təbəqəsinin alt qatları əvvəlki İlk Tunc dövrü ənənələri ilə bağlanır ki, bu da qədim mədəniyyətlərin varisliyi məsələsinin tədqiqi üçün mühüm əhəmiyyət kəsb edir. Buna görə də bu yaşayış yerindəki maddi mədəniyyət qalıqlarını və bu tipli tapıntıların məlum olduğu abidələri "Üzərliktəpə mədəniyyəti" adı altında birləşdirmək daha düzgündür.

Son Tunc-İlk Dəmir dövrü (e.ə. II minilliyin ikinci yarısı-I minilliyin əvvəlləri) Cənubi Qafqazda, o cümlədən Azərbaycan ərazisində əhalinin sürətli artımı, sıx məskunlaşma, maddi istehsalın yüksək inkişafı, yerli zəmində ilk klassik dövlətlərin meydana çıxma ərəfəsi ilə səciyyələnir. Şimali Azərbaycanda bu dövrə aid abidələrin tədqiqatları ilə üç arxeoloji mədəniyyət - Xocalı-Gədəbəy, Naxçıvan və Talış-Muğan mədəniyyətləri kəşf edilmişdir.

Xocalı-Gədəbəy mədəniyyəti Azərbaycanın daha geniş ərazilərini, eyni zamanda indiki Ermənistanı və Gürcüstanın şərq hissəsini əhatə etmişdir. Bu mədəniyyətə aid səciyyəvi kütləvi tapıntılar (qara və boz rəngli, səthi cilalı, kəsmə-basma üsulu ilə həndəsi və zoomorf ornamentlərlə naxışlanmış saxsı qablar, silahlardan və bəzəklərdən ibarət tunc məmulatı, kurqanaltı torpaq və daş qutu tipli qəbirlərin kütləviliyi və s.) ilk dəfə hələ XIX əsrin axırlarında Qarabağda Xocalı ətrafında və Gədəbəydə aşkar edilmişdir. Sonrakı dövrlərdə bu mədəniyyətə aid abidələr daha geniş arealda tədqiq edilmişdir. İlk tədqiqat yerlərinə uyğun olaraq XX əsrin 30-cu illərindən başlayaraq bu qəbildən olan bütün abidələr "Xocalı-Gədəbəy mədəniyyəti" adı altında birləşdirilmişdir (Джафарзаде И.М. Ходжалинская экспедиция. Земляной курган № 5 // Известия Азербайджанского филиала Академии Наук СССР. № 2, 1941; Минкевич-Мустафаева Н.В. О датировке и хронологических этапах некоторых памятниках Азербайджана эпохи поздней бронзы и раннего железа // Материальная культура Азербайджана. Т. ЫВ. Баку: 1962). Bu mədəniyyət Azərbaycanda erkən dövlətçilik ənənələrinin, maddi və mənəvi mədəniyyətin, dəfn adətlərinin, etnogenez tarixinin tədqiqatları üçün zəngin elmi bazanı təşkil edir.

